# HƏYAT BİLGİSİ

# 7

DƏRSLİK



LAYİHƏ

 

# Azərbaycan Respublikasının Dövlət Himni

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Əhmәd Cavadındır.*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

LAYİHƏ



**HEYDƏR ƏLİYEV**
**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

LAYİHƏ

LAYİHƏ

Nüşabə Məmmədova
Könül Mahmudova
Sevil Bəhrəmova

# HƏYAT BİLGİSİ

# 7

*Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün*
*Həyat bilgisi fənni üzrə*

**DƏRSLİK**

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

LAYİHƏ

# MÜNDƏRİCAT

## SAĞLAM VƏ TƏHLÜKƏSİZ HƏYAT


1. EMOSİYALAR HƏYATI BƏZƏYİR ........ 6
2. SAĞLAMLIĞIMIZIN QAYĞISINA QALAQ ........ 8
3. HANSI TƏHLÜKƏLƏRLƏ RASTLAŞA BİLƏRİK? ........ 11
4. EHTİYATI ƏLDƏN VERMƏYƏK ........ 14
5. BUNLARI HAMI BACARMALIDIR ........ 17


## MƏNƏVİ HƏYAT


6. MƏNƏVİ BORC ........ 24
7. DİN VƏ MƏDƏNİYYƏT ........ 27
8. DOĞRU VƏ YANLIŞ DÜŞÜNCƏ ........ 30
9. DAVRANIŞIMIZIN MƏNƏVİ "MÜHƏRRİK"LƏRİ ........ 32
10. DİLİN BƏLALARI: QEYBƏT VƏ İFTİRA ........ 35


## BİZİ ƏHATƏ EDƏN MÜHİT


11. HƏRƏKƏT MATERİYANIN XASSƏSİDİR ........ 38
12. TƏBİƏTDƏKİ QARŞILIQLI TƏSİRLƏR ........ 40
13. ENERJİ VƏ ENERJİ ÇEVRİLMƏLƏRİ ........ 42
14. İNSAN VƏ ƏTRAF MÜHİT ........ 45
15. MEŞƏLƏR PLANETİMİZİN "AĞCİYƏR"İDİR ........ 48


## CƏMİYYƏTİN TƏLƏBATI


16. DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİMİZ ........ 52
17. DÖVLƏTİN İDARƏETMƏ FORMALARI ........ 55
18. CƏMİYYƏTİN HƏYATI ........ 58
19. CƏMİYYƏT VƏ TƏŞKİLATLAR ........ 60
20. HÜQUQ SAHƏLƏRİ ........ 64
21. NORMATİV HÜQUQİ SƏNƏDLƏR ........ 67
22. KONSTİTUSİYADA TƏHSİL HÜQUQU ........ 76
23. ƏMƏK VƏ ONUN NÖVLƏRİ ........ 71
24. İQTİSADİ PROSESLƏRDƏ ƏMƏYİN ROLU ........ 73

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT ........ 80


ŞƏRTİ İŞARƏLƏR:

Araşdırma və müzakirə

Diqqət yetirilməli fikirlər

Suallar və tapşırıqlar

LAYİHƏ

# SAĞLAM VƏ TƏHLÜKƏSİZ HƏYAT



1. EMOSİYALAR HƏYATI BƏZƏYİR
2. SAĞLAMLIĞIMIZIN QAYĞISINA QALAQ
3. HANSI TƏHLÜKƏLƏRLƏ RASTLAŞA BİLƏRİK?
4. EHTİYATI ƏLDƏN VERMƏYƏK
5. BUNLARI HAMI BACARMALIDIR

LAYİHƏ

# 1. EMOSİYALAR HƏYATI BƏZƏYİR



*Uzunsürən yay tətilindən sonra məktəbə qayıdan uşaqlar sinif yoldaşları ilə görüşdüklərinə görə çox sevinirdilər. Lakin dərs ili ərzində onların arasında inciklik də baş verir. Hər kəs bu incikliyi bir cür qəbul edir. Aysel də rəfiqəsindən və bacısından inciyərkən rəsmlər çəkir. Anasına: "Bu şəkilləri çəkərkən əhvalım yaxşılaşır, bütün inciklikləri unuduram", – deyir.*

***Sizcə, nə üçün rəsm çəkmək insanda müsbət emosiyalar yaradır?***

Gündəlik həyatımızda rast gəldiyimiz hər bir amil həyat tərzimizə öz təsirini göstərir. Qəzetdən, radiodan, televiziyadan, eləcə də digər informasiya mənbələrindən alınan məlumatlar insanda həm mənfi, həm də müsbət emosiyalar yaradır. Həyatımızı bunlarsız təsəvvür etmək mümkün deyil. **Müsbət emosiyalar** sağlamlıq üçün faydalı, **mənfi emosiyalar** isə təhlükəlidir.



**Müsbət emosiyalar** qələbə, sevinc, şad xəbər, uğur və s. kimi hadisələr nəticəsində yaranır. Yəqin ki, hər birimiz üçün sakit, rahat və estetik zövqü oxşayan bir mühit olduqca vacibdir. Təmiz və səliqəli otaq, xüsusi zövqlə açılmış süfrə, maraqlı bədii əsər, konsert, klassik bir musiqi, insanı nağıllar aləminə aparan bir film, həyətdə yağan qar əhval-ruhiyyəni yaxşılaşdırır, müsbət emosiyaların yaranmasına səbəb olur.

**Mənfi emosiyalar** orqanizmin fəaliyyətinə zərərli təsir göstərir. Belə emosiyalar bəd xəbər, qorxu, uğursuzluq, münaqişə, ümidsizlik və digər hallarda yaranır. Bu zaman yaranan ruh düşkünlüyü, həyəcan, əsəb gərginliyi, taqətsizlik gələcəkdə müxtəlif xəstəliklərə səbəb ola bilər.

*Münaqişələrin hallini asanlaşdıran davranış formaları hansılardır?*

LAYİHƏ

Bəzən həm mənfi, həm də müsbət emosiyalar ***stresə****** səbəb ola bilir.



Öyrənəcəyiniz dərslərin üst-üstə yığılması, imtahana hazırlıq, yaxın adamın uzaq səfərdən qəfil qayıtması, ətrafdakılarla münaqişələr, hər hansı bir işdə gözlənilməz uğursuzluq, inciklik, qısqanclıq, qorxu, xəstəlik, həyati təhlükə və s. kimi hallar stresə səbəb ola bilər. Bu zaman orqanizmdə müəyyən fizioloji dəyişikliklər baş verir. Stres insan sağlamlığına mənfi təsir göstərərək hətta ***nevrozların*****, ürək-damar xəstəliklərinin, mədə xorası xəstəliyinin və s. yaranmasına səbəb olur.

*Gülarə altıncı sinifdə oxuyurdu və çox məsuliyyətli qız idi. Evlərində qonaq olduğuna görə o, coğrafiya müəlliminin verdiyi tapşırıqları yerinə yetirə bilməmişdi. Səhər müəllim ondan dərsi soruşdu və hazırlıqsız olduğuna görə Gülarəni danladı. Gülarə pərt oldu. Müəlliminə tapşırıqları yerinə yetirməməsinin səbəbini izah edə bilmədi və ağlamağa başladı.*

***Gülarənin bu haldan çıxa bilməsi üçün ona hansı məsləhətləri verə bilərsiniz?***

Alimlərin bir qismi hesab edir ki, stresdən qaçmağa çalışmaq əvəzinə, hissləri cilovlamağı bacarmaq lazımdır. Bunun üçün stresə qarşı nikbin mövqe tutaraq reallığı qəbul etmək, özünü ələ almaq olduqca əhəmiyyətlidir.

Buna görə də müsbət emosiyalarla yaşayıb, mənfi emosiyalardan hər vasitə ilə uzaq olmaq lazımdır.

1. *Mənfi emosiyalardan necə xilas olmaq olar?*
2. *Şən musiqiyə qulaq asmaq, Azərbaycan Milli İncəsənət Muzeyində olmaq, maraqlı bir bədii əsər oxumağın insanda yaratdığı müsbət emosiyalar hansılardır?*
3. *Aşağıda göstərilən hansı hallar stresə səbəb ola bilər? Stresdən çıxmağın yolları haqqında yoldaşlarınıza tövsiyə hazırlayın.*

*qələbə* | *yuxusuzluq* | *şən musiqi* | *qaranlıq* | *xəstəlik* | *imtahan* | *rəsm əsəri*

* ***Stres*** *– orqanizmdə gözlənilməz və qeyri-adi təsirlərin nəticəsində baş verən hallar*
** ***Nevroz*** *– sinir sisteminin funksional pozğunluğu*

LAYİHƏ

## 2. SAĞLAMLIĞIMIZIN QAYĞISINA QALAQ



*İlqar öz sağlamlığının qayğısına qalır. Sizcə, o indi sağlamlığın hansı şərtinə əməl etdiyi barədə bizə məlumat verir? İlqar sağlamlığın digər şərtlərinə də əməl etdiyini göstərmək üçün bura daha hansı şəkilləri əlavə edə bilərdi?*

Orqanizmimizin sağlam və yaxud xəstə olması daha çox özümüzdən asılıdır. Bədən çəkisinin artıq olması, hərəkət azlığı, düzgün qidalanmamaq, siqaret çəkmək, narkotik maddələrdən, spirtli içkilərdən istifadə etmək və onlara aludəçilik sağlamlıq üçün zərərlidir.

Elmi-texniki tərəqqi insanları vaxtsız qocaldan, xəstəliklərə düçar edən, insan ömrünü xeyli qısaldan ağır, üzücü fiziki əməkdən xilas edib. Lakin bununla yanaşı, fiziki işlə məşğul olmamaq, hərəkət azlığı insanda bir sıra xəstəliklərin əmələ gəlməsinə səbəb olmuşdur. Əzələlərin fəallığının azalması hüceyrə və toxumalarda oksigen aclığı yaradır. Hərəkət azlığı ürək xəstəlikləri, beynə qan sızması və s. xəstəliklərin yaranmasının başlıca səbəbi olmasa da, bu xəstəliklərin yaranmasında az rol oynamır.

Sağlam həyat eyni zamanda zərərli vərdişlərdən uzaq olmaqdır.

*Qədim Yunanıstanda belə bir deyim vardı: "Güclü olmaq istəyirsənsə, qaç, gözəl olmaq istəyirsənsə, qaç, ağıllı olmaq istəyirsənsə, qaç".*



LAYİHƏ

*Vaxtilə ABŞ-da siqaretin vurduğu zərəri müəyyən etmək üçün komissiya yaradılmışdı. Komissiyanın tərkibinə həm siqaret çəkənlər, həm də siqaret çəkməyənlər daxil edilmişdi. Siqaretin orqanizmə vurduğu zərərin ağır nəticələrini müəyyənləşdirdikdə komissiyada iştirak edən siqaretçəkənlərin hamısı siqareti tərgitdi.*



**Siqaretin tərkibində 200-dən çox zərərli maddə vardır.** Bu zərərli maddələr tənəffüs yolları ilə ağciyərə, ağız suyu ilə həzm orqanlarına qədər gedib çıxır. Siqaret çəkənlər tez-tez soyuqdəymə və yoluxucu xəstəliklərə düçar olur, orqanizmin qanla təchizi azalır, əmək qabiliyyəti xeyli aşağı düşür. Aparılan tədqiqatlara görə, ağciyər xərçəngi ilə xəstələnənlərin çoxu məhz siqaret çəkənlərdir.



**Məhvedici təsirə malik daha bir zərərli vərdiş spirtli içkilərdən istifadə etməkdir.** Spirtli içki sinir hüceyrələrini məhv edir, zəhərli maddələri kənarlaşdıran qaraciyərə və böyrəklərə ziyan vurur. Daim spirtli içki qəbulu həzm sistemi xəstəliklərinə səbəb olmaqla yanaşı, ürəyin işini pozur, yaddaş pozğunluğu yaradır. Ailədə münaqişələrə, sosial problemlərə yol açır.



**Zərərli vərdişlər içərisində ən təhlükəlilərdən biri isə narkotiklərin qəbuludur.** Narkotik qəbul edən insanların orqanizmi zəifləyir, arıqlayır, halsızlaşır və onlar ruhi pozğunluqlara düçar olurlar. Belə insanların sinir sistemi pozulur, əsəbi olur, əlləri əsir və yaddaşı zəifləyir. Bu xəstələrin qaraciyər və böyrəkləri zəiflədiyi üçün zərərli maddələr onların bədənini daha tez zəhərləyir. Bütün bunlar insanın məhvinə gətirib çıxarır.

*Zərərli vərdişlərə aludəçilik həm ailə, həm də cəmiyyət üçün təhlükəlidir.*

LAYİHƏ

Bu gün özümüzü kompütersiz təsəvvür etmirik. İstədiyimiz məlumatı əldə etməkdə kompüter köməyimizə çatır. Lakin həkimlər azyaşlı uşaqlara kompüterdən çox istifadə etməyi məsləhət görmürlər. Uşaqların kompüterə və ya televizora uzun müddət baxmaları onların gözlərində ciddi problemlər yarada bilər.



Kompüter qarşısında çox oturmaq yuxu və sinir pozğunluğuna səbəb olur ki, bu da nevroza gətirib çıxarır. Gecə saatlarında kompüterdən istifadə uşaqlarda və hətta böyüklərdə də beynin inkişafına mane olur.

Sağlamlığımızı qorumağı öyrənməsək, heç bir təbib bizə kömək edə bilməz. Ona görə də tez-tez "düzgün qidalanırammı", "istirahət edirəmmi", "sinir hüceyrələrimi qoruyurammı", "təmiz havada gəzirəmmi" sualları ətrafında düşünməniz vacibdir.

**1.** *Televizordan və telefondan asılılığın insan orqanizminə mənfi təsiri haqqında məlumat toplayıb təqdimat hazırlayın.*

**2.** *Zərərli vərdişlərin aradan qaldırılması üçün hansı təklifləri irəli sürərdiniz?*

**3.** *Elə bir tibbi cihaz təsvir edin ki, bu cihaz insanları zərərli vərdişlərdən – siqaret çəkmək və spirtli içkilərdən istifadədən xilas edə bilsin.*

**4.** *"Siqaret çəkənlərin ətrafında olan insanlara dəyən ziyan" mövzusunda esse yazın.*

**5.** *Sağlamlığın müxtəlif cəhətlərinə təsir göstərən amilləri müəyyənləşdirin.*

| | |
|---|---|
| Fiziki sağlamlıq | |
| Emosional sağlamlıq | |
| Mənəvi sağlamlıq | |



LAYİHƏ

## 3. HANSI TƏHLÜKƏLƏRLƏ RASTLAŞA BİLƏRİK?



*Lamiyə dərs oxuyurdu. Kiçik bacısı Sevinc otaqda yatdığından o, stolüstü lampanı yandırdı. Elektrik naqili xalçanın altında qalmışdı. Lamiyənin anası bunu görüb tez lampanı söndürdü.* ***Sizcə, o bunu nə üçün etdi?***

Elm və texnika sürətlə inkişaf edir. Lakin bununla yanaşı, qəza halları da durmadan artır. İl ərzində yüzlərlə insan məişətdə və ictimai yerlərdə baş verən qəzalar nəticəsində dünyasını dəyişir və yaxud müxtəliftipli xəsarətlər alır. Bu isə adi təhlükəsizlik qaydalarını bilməməkdən və yaxud onlara əməl etməməkdən irəli gəlir.



*Təyyarə qəzası*

Bu gün respublikamızın regionlarında uşaqların kifayət qədər əylənə biləcəyi parkların, uşaq əyləncə mərkəzlərinin olması hamımızı sevindirir. Yəqin ki, boş vaxtlarınızda valideynlərinizlə bu uşaq əyləncə mərkəzlərinə, parklara, yayda isə çimərliklərə getməyi çox xoşlayırsınız. Lakin vaxtınızı maraqlı keçirmək istədiyiniz bu cür yerlərdə gigiyena və təhlükəsizlik qaydalarına əməl etməməyiniz bəzən xoşagəlməz hadisələrin baş verməsinə səbəb ola bilər.

LAYİHƏ





*Uşaq əyləncə mərkəzlərində, parklarda və çimərliklərdə əməl etməli olduğunuz təhlükəsizlik qaydaları hansılardır və bu qaydalara əməl etməməyin nəticələri nə ola bilər?*



Elektrik xətlərinin həddindən artıq qızması və elektrik şəbəkələrinin normadan artıq yüklənməsi elektrik xəttində qısaqapanmalara – yanğınlara səbəb olur. Elektrik yanğınlarının söndürülməsində qətiyyən sudan istifadə etmək olmaz. Bu, yanğının artması və eyni zamanda onu söndürməyə çalışan insanı elektrik vurması ilə nəticələnə bilər. Uşaqların elektrik cihazları ilə oynaması, elektrik şəbəkəsinə hər hansı bir əşya ilə müdaxilə etməsi, elektrik cihazlarını suya yaxın tutması və s. nəticəsində də elektrik vurmaları baş verə bilər. Elektrik cərəyanı bütün orqanizmə, ilk növbədə isə sinir sisteminə təsir göstərir. Bu halda qıcolma baş verir, bədən soyuyur, ürəyin fəaliyyəti zəifləyir və əksər hallarda insan dünyasını dəyişir.

Gündəlik həyatımızda bədən temperaturunu ölçmək üçün civəli termometrlərdən geniş istifadə olunur. Lakin ehtiyatsızlıq nəticəsində termometr sına və civə ətrafa yayıla bilər. Civə dağılmaları zamanı aşağıdakı qaydalara əməl etmədikdə bədənə daxil olan civə təzyiqin yüksəlməsinə, infarkta, dəridə qızartıların və yaraların yaranmasına, gözlərin sulanmasına səbəb ola bilər.

LAYİHƏ



*Civə dağılarsa:*

*– Civə damcılarının üstünə çıxmamalı və təcili azyaşlı uşaqları həmin yerdən uzaqlaşdırmalı;*

*– Pəncərəni açmalı;*

*– Yerə tökülən civə parçalarını təmizləmək üçün tozsorandan istifadə etməməli;*

*– Plastik (rezin) əlcək geyib yerdəki civə damcılarını bir vərəqlə və ya yumşaq fırça ilə kağıza yığmalı;*

*– Yığılmış damcıları su ilə dolu şüşə qaba boşaldıb ağzını bağlamalı;*

*– Sınıq termometrdə qalmış civəni də bu qaba atmalı;*

*– Civənin dağıldığı yer sabun-soda məhlulu ilə isladılmalıdır.*

Təhlükəsizlik qaydalarına əməl etməmək bir sıra bədbəxt hadisələrə səbəb ola bilər. Belə hallarda zərərçəkəni xilas etmək üçün vaxt itirmədən ilkin tibbi yardım göstərilməli və təcili olaraq həkimə müraciət olunmalıdır.

**1.** *İctimai yerlərdə hansı təhlükəsiz davranış qaydalarına əməl olunmalıdır?*
**2.** *Küçələrdə tez-tez sahibləri tərəfindən gəzdirilən itlərə rast gəlinir. Bu zaman itin sahibinin və ətrafdakı şəxslərin hansı təhlükəsizlik qaydalarına əməl etməli olduğunu və it dişləyərsə, insanın üzləşəcəyi təhlükələri müəyyənləşdirin.*
**3.** *Kimya laboratoriyasında hansı təhlükəsizlik qaydalarına əməl olunmalıdır? Əks halda hansı təhlükələrlə rastlaşa bilərik? Cədvəl tərtib edin.*
**4.** *Düzgün olanları seçin:*
*a) civə dağılan yeri tozsoranla təmizləməli;*
*b) yığılmış civəni su ilə dolu şüşə qaba atmalı;*
*c) sınmış termometri zibil qabına atmalı;*
*d) civəni əllə toplamalı;*
*e) evin pəncərələrini açmalı;*
*ə) evin pəncərələrini bağlamalı.*

LAYİHƏ

## 4. EHTİYATI ƏLDƏN VERMƏYƏK

*Novruz bayramı idi. Çingiz valideynləri ilə birlikdə Gəncədə yaşayan əmisigilə qonaq gedirdi. Onlar bu səfərə həmişə öz maşınları ilə çıxırdılar. Bu dəfə isə ata oğlundan Gəncəyə nə ilə getmək istədiyini soruşdu. Çingiz Gəncəyə həm avtobus, həm qatar, həm də təyyarə ilə getməyin mümkünlüyünü bildiyindən: "Qoy bir az düşünüm", – deyib atasına böyük qardaşı ilə məsləhətləşəcəyini bildirdi.*



***– Sizcə, Çingizin düşünməsinə nə səbəb ola bilərdi?***
***– O, hansı qaydalara əməl etməlidir ki, səfər zamanı təhlükələrdən uzaq olsun?***

Hər birimiz piyada olmaqla yanaşı, həm də sərnişinik. Yaxın məsafələrə getmək üçün metro və avtobusdan, uzaq məsafələrə getmək üçün isə qatar, təyyarə və başqa nəqliyyat vasitələrindən də istifadə edirik. İstənilən ictimai nəqliyyatdan istifadə zamanı sağlamlığınızı, həyatınızı qorumaq üçün müəyyən qaydaları bilməlisiniz.

### *Avtobusda təhlükəsizlik qaydaları*

- Boş oturacaq olduğu halda əyləşməli;
- Salonda gəzməməli, qaçmamalı, ayaq üstə duran zaman tutacaqdan tutmalısınız. Əks halda sürücünün əyləci basması nəticəsində zədələnmə baş verə bilər;
- Qapıya söykənməməli;
- Yüksək səslə musiqiyə qulaq asaraq, ucadan danışaraq sürücünü çaşdırmamalı;



- Başınızı, qolunuzu və yaxud hansısa bir əşyanızı pəncərədən bayıra çıxarmamalısınız.



LAYİHƏ

## *Metroda təhlükəsizlik qaydaları*



- Eskalatorda sağ tərəfdə, üzü hərəkət istiqamətinə dayanmalı və barmaqların tutacağın altında qalmamasına nəzarət etməli;
- Platformada qatarın gəldiyi yola yaxın durmamalı;
- Relslər üzərinə hər hansı bir əşya düşərsə, təcili növbətçiyə bu barədə xəbər verməli;
- Vaqonun qapılarına yaxınlaşmaq üçün qatarın dayanmasını və sərnişinlərin düşməsini gözləməli;
- Qatara minəndə və düşəndə hərəkətli qapılarla ehtiyatlı olmalı;
- Qatar hərəkətdə olarkən qapıya söykənməməli;
- Vaqonda və yaxud platformada gördüyünüz sahibsiz əşyalara toxunmamalı və bu barədə növbətçiyə xəbər verməlisiniz.

## *Təyyarədə təhlükəsizlik qaydaları*



- Uçuş zamanı siqaret çəkməməli və elektron cihazlardan istifadə etməməli;
- Təyyarədə qalxma və enmə zamanı mütləq təhlükəsizlik kəmərlərini bağlamalı;
- Hava gəmisindəki avadanlıqları korlamamalı;
- Baqajda radioaktiv maddələr, fişəng, maqnit və s. aparmamalı;
- “Sərt eniş” zamanı əyilərək əlləri dizlərin altında çarpazlamalı, başı mümkün qədər aşağı salmalı, ayaqları döşəməyə dirəməlisiniz.

LAYİHƏ

## *Dəmiryol qatarlarında təhlükəsizlik qaydaları*



- Vaqona daxil olarkən qəza çıxışlarının və yanğınsöndürən cihazların yerlərini öyrənməli;
- Baqajda tez alışan, kimyəvi təhlükəli, partlayışa səbəb ola bilən əşyaları aparmamalı;
- Zərurət olmadıqda stop krandan (əyləc) istifadə etməməli;
- Pəncərədən çölə boylanmamalı, vaqonun pilləkənlərində durmamalı;
- Tüstü və ya yanıq iyi hiss etdikdə, şübhəli şəxs və ya bağlama gördükdə dərhal qatar bələdçisinə xəbər verməli.

?

**1.** *Lalə valideynləri ilə birlikdə Türkiyəyə istirahətə getməyə hazırlaşırdı. O, internet vasitəsilə təyyarədə təhlükəsizlik qaydaları haqqında məlumat topladı. Topladığı məlumatda həm təyyarədə, həm də dəmiryol qatarlarında bəzi təhlükəsizlik qaydalarının eyni olduğunu müşahidə etdi. Sizcə, bu qaydalar hansılardır?*

**2.** *Xanımın babası 1994-cü ildə Bakı metropolitenində törədilmiş terror aktı zamanı həlak olmuşdu. Ona görə də çox zaman metroda yanğın olarsa, hansı qaydalara əməl edəcəyi barədə düşünürdü. Xanıma bu işdə yardım etmək məqsədilə metroda yanğın və partlayışlar zamanı gərəkli olacaq təhlükəsiz davranış qaydaları haqqında məlumat toplayın.*

**3.** *Gəmidə və dəmiryol nəqliyyatında təhlükəsiz davranış qaydalarını və bu qaydalara riayət etmədikdə yaranan təhlükəni aşağıdakı cədvəldə qeyd edin.*

| Nəqliyyat növləri | Təhlükəsizlik qaydaları | Qaydalara riayət etməməyin nəticələri |
|---|---|---|
| Gəmi | | |
| Qatar | | |

**4.** *Məktəbinizdəki şagirdlərin ictimai nəqliyyatda təhlükəsizlik qaydalarına əməl etmələri üçün buklet və simvol hazırlayın.*



LAYİHƏ

# 5. BUNLARI HAMI BACARMALIDIR

*Nazim və Samir dənizdə çimirdilər. Hava küləkli olduğu üçün çimərlikdə çox az adam qalmışdı. Nazim Samiri evə getmək üçün çağırmaq istədi. Ancaq o gördü ki, Samir suya batıb-çıxır. Nazim boğulmaqda olan Samiri çox çətinliklə sahilə çıxardı. Samir huşunu itirmişdi.*



***Bu zaman Nazim nə etməli idi?***

Təbii, texnogen xarakterli fəlakət və qəzalar zamanı necə davranmalı olacağınız artıq sizə məlumdur. Ancaq qəzalardan nə qədər qaçmağa çalışsaq da, çox vaxt müxtəlif təhlükəli vəziyyətlərlə rastlaşırıq. Hər hansı bir zədələnmə zamanı həkim gələnə qədər göstəriləcək ilk tibbi yardımın böyük əhəmiyyəti vardır. Əzilmə, burxulma, çıxıq və sınıqlar, yanıqlar, qanaxmalar, huşun itməsi, müxtəlif zəhərlənmələr və s. hallar zamanı özünü itirmək zərərçəkənin vəziyyətinin bir qədər də ağırlaşmasına səbəb ola bilər. Bəs belə hallar zamanı nə etməli?

*Zərərçəkəni əlverişsiz şəraitdən uzaqlaşdır. Dərhal təcili yardım çağır!*
*Təcili yardım gələnə qədər aşağıdakıları yerinə yetirmək vacibdir.*

**Burxulma** və **çıxıqlar** insanın oynaqlarında baş verən zədələnmələrdir. Bu zaman zədələnmiş yerə buz, yaxud soyuq suda isladılmış dəsmal qoyulur. Burxulmuş nahiyə möhkəm sarğı ilə sarınır. Çıxıq zamanı oynaq başı oynaq çuxurundan çıxır. Çıxığı yerinə salmağa çalışmayın, onu tərpənməz vəziyyətə gətirin. Əks halda ətraf toxumalar da zədələnə bilər.







LAYİHƏ

**Sınıqlar.** Sümük sınıqları iki cür olur: açıq və qapalı. Adətən, açıq sınıq zamanı sınmış sümüklər şiş uclu və iti olur. Onlar əzələ, qan damarları, sinirləri və dərini kəsir. Belə olduqda yaranı təmizləmək, qanaxmanı dayandırmaq, üzərinə təmiz sarğı və ***şina**** qoyub tərpənməz hala gətirmək lazımdır. Qapalı sınıqlar zamanı da şinalar qoyulur. Şinalar qoyularkən elə etmək lazımdır ki, ən azı iki oynaq əhatə olunsun.

Ancaq bəzən elə sınıqlar olur ki, ona şina qoymaq olmaz. Qabırğalar, onurğa sütunu, kəllə sümükləri sındıqda şina qoyulmur.







**Qanaxmalar.** Qan damarlarının zədələnməsi qanaxmalara səbəb ola bilər. Qanaxma zəifdirsə, yaranın ətrafına yod çəkib bağlamaq, bəzən isə basıcı sarğı qoymaq kifayətdir. Ən təhlükəli qanaxma arterial qanaxmadır. Bu zaman zərərçəkən bir neçə dəqiqə ərzində çox miqdarda qan itirə bilər. İlk tibbi yardım zamanı dərhal zədələnmiş yer zədədən yuxarı hissədən turna, burulmuş parça, bel kəməri, rezin və s. ilə möhkəm sıxılmalı, xəstə təcili xəstəxanaya çatdırılmalıdır. Turnanın bağlandığı vaxt qeyd edilməlidir. Çünki turna çox qalarsa, ətrafa qan işləməz və toxumalar məhv olar.



* ***Şina*** *– bədənin zədələnmiş və sınmış hissəsini hərəkətsiz saxlamaq üçün qoyulan bərk qoruyucu örtük (vasitə)*



LAYİHƏ

**Yaralanmalar.** Deşici alətlərdən ehtiyatsız istifadə, yol qəzaları, terror və s. zamanı bədənin yaralanmaları baş verə bilər. Döş qəfəsinin yaralanması zamanı yarada yad cisim olmadıqda dərhal yaranı ovucla bağlayıb ora havanın keçməsinin qarşısını almaq lazımdır. Yarada yad cisim varsa, onu qətiyyən çıxarmaq olmaz! Dəlib keçən yaralanmalar zamanı yaranın həm giriş, həm də çıxış yerləri bağlanmalıdır. Zərərçəkmiş yarıoturaq vəziyyətə gətirilməli, yaranın üzəri təmiz, hava keçirməyən (polietilen torba, alüminium folqa və s.) materialla örtülməlidir. Vaxt itirmədən təcili yardım çağırmalı, əgər zərərçəkmiş huşsuz vəziyyətdədirsə, tənəffüsü və nəbzi tez-tez yoxlanılmalıdır.

Yaralanmalar zamanı qadağandır:

- yaranı su ilə yumaq;
- yaraya spirtli dərman preparatları (yod, spirt) tökmək; dərman çəkmək, pambıqla örtmək;
- yaradan sümük qırıntılarını, qan laxtasını xaric etmək;
- yaradan kənara çıxmış orqanları yerinə salmaq;
- yaradan kənara çıxan orqanların üzərinə sıxıcı sarğı və soyuq kompres qoymaq;
- yaraya batmış yad cismi xaric etmək;
- döş qəfəsi, qarın yaralanmaları zamanı zərərçəkmişə maye içirtmək.

**Boğulma, suda batma, elektrik və ildırım vurması zamanı** insanlara süni tənəffüs verilə bilər. Bu zaman zərərçəkən üfüqi vəziyyətdə uzadılır, ağzı təmizlənir, başı arxaya əyilir və ağzı açılır. Sonra dərindən nəfəs alıb onun ağzına hava üfürülür. Bu proses dəqiqədə 16-18 dəfə təkrar olunur.

Əgər ürək dayanıbsa, o, dolayı yolla masaj edilir. Yəni hər nəfəsverrmədən sonra ürəyi 3-4 sm dərinlikdə 4-5 dəfə sıxmaq lazımdır. Bunu iki nəfərin növbə ilə yerinə yetirməsi daha yaxşı nəticə verər.







LAYİHƏ



*Elektrik vurması*



*Suda boğulma*

**Yanıqlar müxtəlif səbəblərdən** – *oddan, buxardan, kimyəvi maddələrdən, qızmış metallardan və s. baş verə bilər. Yanıqlar I, II, III və IV dərəcəli olur. Ən qorxulu yanıq IV dərəcəlidir.*




Yanıqlar zamanı güclü ağrılar olur, zəhərli maddələr yaranıb qana sorulur və zəhərlənmə baş verir. Zərərçəkənə ilk tibbi yardım zamanı onun yanan paltarını söndürmək, çoxlu maye içirtmək lazımdır.

Yanıq zamanı əmələ gələn suluqları deşmək, yaraya yağ və s. maddələr sürtmək olmaz. Zədələnmiş sahənin üzərinə xüsusi yanıq əleyhinə sarğı qoyulur. Kimyəvi maddələr nəticəsində yaranmış yanıqlar zamanı yanmış nahiyə mütləq 15 dəqiqə axar su ilə yuyulmalıdır.



Yanıb dəriyə yapışmış paltarı zorla dartıb çıxarmaq olmaz. Onu çox ehtiyatla kəsib çıxarmaq lazımdır.



LAYİHƏ

**Dəm qazından zəhərlənmə.** Son dövrlərdə dəm qazından zəhərlənməyə tez-tez rast gəlinir. Zəhərlənmə zamanı aşağıdakı hallar müşahidə olunur:



- başgicəllənmə;
- quru öskürək;
- başağrısı;
- ürəkbulanma;
- qusma;
- qıcolma;
- huşun itməsi.

Zəhərlənmə zamanı ilk yardım:

– zərərçəkəni açıq havaya çıxarmalı;

– paltarının yaxasını açmalı;

– zərərçəkəni yarıoturaq vəziyyətə gətirib alnına, sinəsinə soyuq kompres qoymalı;

– zərərçəkən nəfəs almırsa, ona süni tənəffüs verilməli və ürəyi dolayı yolla masaj edilməlidir.

**Ürəkgetmə (bayılma)** – *huşun müvəqqəti itməsidir*. Bayılmaya səbəb istivurma, günvurma, güclü ağrı, qorxu, yorğunluq, kəllə-beyin zədələnmələri və s. ola bilər. Belə olan halda:

– zərərçəkəni arxası üstə uzatmalı və ayaqlarını bir qədər hündürə qaldırmalı;

– paltarının yaxasını açmalı;

– təmiz havanın daxil olması üçün pəncərələri açmalı;

– zərərçəkənin üzünə soyuq su çiləməli və ya naşatır spirti iylətməli.



*Dəm qazından zəhərlənmə, yanğın və müxtəlif qəzalar zamanı zərərçəkənlər dərhal hadisə yerindən uzaqlaşdırılmalı, ilk tibbi yardım göstərildikdən sonra təcili olaraq həkimə çatdırılmalıdır. Siz gələcəkdə ilk tibbi yardımın başqa növləri haqqında da məlumatlar əldə edəcəksiniz.*

LAYİHƏ

***Vaxtında edilən yardım insan həyatını qorumaq deməkdir.***

**1.** *Suda baş verən təhlükəli hadisələrdən biri də əzələ qıcolmasıdır. Bu zaman insanın ayağı tamamilə keyləşir. Bu halda özünüzə hansı ilk yardım göstərməli olduğunuz barədə məlumat toplayın.*

**2.** *Aşağıdakı ilk tibbi yardım növləri hansı bədbəxt hadisələr zamanı göstərilə bilər?*

| İlk tibbi yardım | Bədbəxt hadisələr |
|---|---|
| Süni tənəffüsün verilməsi | |
| Turnanın qoyulması | |
| Şinanın qoyulması | |
| Zədələnmiş nahiyəyə suda isladılmış dəsmalın qoyulması | |

**3.** *Aşağıdakı hallarda hansı ilk tibbi yardım tədbirləri görülməlidir?*

| Bədbəxt hadisələr | İlk tibbi yardım |
|---|---|
| Yanıq | |
| Dəm qazından zəhərlənmə | |
| Bayılma | |
| Arterial qanaxma | |



LAYİHƏ

# MƏNƏVİ HƏYAT



6. MƏNƏVİ BORC
7. DİN VƏ MƏDƏNİYYƏT
8. DOĞRU VƏ YANLIŞ DÜŞÜNCƏ
9. DAVRANIŞIMIZIN MƏNƏVİ "MÜHƏRRİK"LƏRİ
10. DİLİN BƏLALARI: QEYBƏT VƏ İFTİRA

LAYİHƏ

## 6. MƏNƏVİ BORC

***Mətni oxuyub təhlil edin.***



*Ayxan neçə gün idi ki, dostu Anarın ad gününə hazırlaşırdı. Bu qonaqlıq onun üçün çox önəmli idi. Çoxdan görmədiyi dostlarını bu məclisdə görəcəkdi. O, təzə ayaqqabı və köynəyinə tez-tez baxır, ad gününü səbirsizliklə gözləyirdi. Nəhayət, həmin gün çatdı. O geyindi, güzgüdə özünə baxaraq evdən çıxdı. Hətta qənaət edib saxladığı pulu da yanında götürməyi unutmadı. Düşündü ki, birdən lazım olar.*

*Amma hadisələr heç də onun istədiyi kimi olmadı. Çayın üzərindəki körpüyə yaxınlaşanda bir qadının fəryadını eşitdi. Ana çayda boğulan balaca qızını xilas etmək istəyirdi.*

*Ayxan heç nə düşünmədən çaya atıldı. Qızı çaydan çıxardı. Həyəcandan söz tapa bilməyən ana Ayxana necə təşəkkür edəcəyini bilmirdi. Ayxan geri dönüb iti addımlarla onlardan uzaqlaşdı. O islanmış geyimini dəyişməli, ad gününə çatmalı idi. Əlini cibinə saldı. Pullar yox idi. Yəqin ki, çayda düşmüşdü. Evə çatıb paltarını dəyişdi. O bu dəfə evdən köhnə geyimdə çıxdı. Buna baxmayaraq, Ayxan əvvəlkindən daha xoşbəxt görünürdü.*

***Ayxanın hərəkətini necə qiymətləndirirsiniz? Onun özünü xoşbəxt hiss etməsinin səbəbi nə idi? Qızı boğulmaqdan xilas etməyə onu nə vadar etdi? Fikirlərinizi bildirin.***

**Mənəvi borc** və **vicdan** insanın daxili hissləridir. İnsanın cəmiyyət, kollektiv və özü qarşısında mənəvi borcu vardır. Mənəvi dəyərlərə sahib olmaq çox vacibdir. Bu baxımdan əxlaqın rolu əvəzedilməzdir. Əxlaq insanlar arasındakı münasibətləri tənzimləyir. Mənəvi borc müəyyən şərtlərə tabe olmur, ona hər zaman əməl edilməlidir. Onu təkcə yaxınlarına qarşı deyil, bütün insanlarla münasibətdə əsas tutmaq lazımdır. Mənəvi borc şəraitdən, zamandan, milliyyətdən, şəxsiyyətdən və yerindən asılı olmayıb universal xarakter daşıyır.

Mənəvi borc və vicdan anlayışlarına yanaşma müxtəlifdir. Çünki cəmiyyətdə insanlar fərqlidirlər. İnsan öz borcunu yerinə yetirdikdə və ya vicdanla hərəkət etdikdə məmnun olur. Bu borc hissi qəbul edilmiş mənəvi dəyərlərə uyğun gəlməlidir. O, daim xeyirxahlığa doğru yönəlməlidir. Borcun könüllü surətdə yerinə yetirilməsi həmin şəxsin yüksək mənəvi şüurundan xəbər verir.



LAYİHƏ

*Azərbaycanın hansı xeyriyyəçilərini tanıyırsınız? Onlar hansı xeyirxahlıqlarına, səxavətlərinə görə ad qazanmışlar?*

Hacı Zeynalabdin Tağıyev öz mənəvi keyfiyyətlərinə görə tariximizin yaddaşında iz qoyub. Onun xeyirxahlığı məcburi olmamış, yüzlərlə gəncin təhsil almasına kömək etmiş, kasıb və kimsəsizlərə yardım göstərmişdir. Hətta 1901-ci ildə Azərbaycan qadınının təhsil almasında böyük rol oynamış müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbini açmışdır.



*H.Z.Tağıyevin qızlar məktəbi*

*Vətənpərvərlik borcunu necə başa düşürsünüz? Nümunələrlə fikrinizi əsaslandırın.*

Yuxarıda deyildiyi kimi, insan yalnız cəmiyyət qarşısında deyil, özü və yaxınları qarşısında da müəyyən borca malikdir. Məsələn, "ailə borcu", "yoldaşlıq borcu" və s.

Cəmiyyətdə tez-tez maddi və mənəvi borc sözlərini eşidirsiniz.

*I. Elşən dostu Kamala pul borcludur.*

*II. Elşən anasına kömək etməyə borcludur.*

*Maddi borc anlayışını yoldaşlarınızla müzakirə edin.*

Mənəvi borca insanların üzərinə düşən öhdəlikləri (məsələn, vətən, xalq, kollektiv, ailə, valideyn qarşısındakı borc), o cümlədən peşə fəaliyyəti (müəllimlik borcu, həkimlik borcu və s.) ilə bağlı vəzifələri aid etmək olar.

Bizim mənəvi borclarımızdan biri də tarixi abidələrimizin – qoruqların, qalaların və digər milli sərvətlərimizin qorunub saxlanmasıdır.



*Mərdəkan qalası*



*"Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğu*



LAYİHƏ

Ermənistan hərbi qüvvələrinin torpaqlarımızın 20%-ni işğal etməsi – tarixi mədəniyyət abidələrimizin dağıdılması ilə nəticələnmişdir. İşğal nəticəsində yüzlərlə tarixi abidə və muzey məhv edilib. Ermənistan tərəfindən tarixi abidələrimizə qarşı bu münasibət “Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında” 1954-cü il Haaqa Konvensiyasına, “Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında” UNESCO-nun 1972-ci il Konvensiyasına, “Arxeoloji irsin mühafizəsi haqqında” 1992-ci il Avropa Konvensiyasına ziddir.

Nəhayət Azərbaycan Ordusu 44 günlük müharibədə tarixi Qələbə əldə etdi. Azərbaycan xalqı bu müharibədə erməni faşizmi üzərində tarixi, maddi, mənəvi qələbə çaldı.

Keçmişimizi unutmayıb 20 Yanvar, Xocalı faciəsi, eləcə də Qarabağ uğrunda gedən döyüşlərdə canlarından keçən şəhidlərimizi və onların qəhrəmanlıqlarını gələcək nəsillərə çatdırmaq bizim mənəvi borcumuzdur.







Mənəvi borclarımızdan biri də dinlə bağlıdır. Müxtəlif dinlərə sitayiş edən insanlar öz dini inanclarına uyğun mərasim keçirir və ayinlərə əməl edirlər. Bütün dinlər insanlara bir-birini sevməyi, zərərli vərdişlərdən uzaq durmağı buyurur.

?

1. *Ailə qarşısında olan mənəvi borcunuz hansılardır? Müəyyənləşdirib müzakirə edin.*
2. *Vətən borcunun müqəddəs bir hiss olduğunu dəyərləndirib fikirlərinizi qeyd edin.*
3. *Təbiət qarşısında mənəvi borcumuz varmı? Münasibətinizi bildirin.*
4. *“Mənim mənəvi borcum” adlı esse yazın.*

LAYİHƏ

## 7. DİN VƏ MƏDƏNİYYƏT



Səadət sarayı

*Bakıya qonaq gələn Daniyel vaxtının çox hissəsini şəhərin müxtəlif yerlərini gəzməyə sərf edirdi. O, şəhərin küçələrini gəzdikcə diqqətlə tikililərə baxır, onların üslubunu müəyyən etməyə çalışırdı. Axı Daniyel memar olmaq istəyirdi. İçərişəhərdə Şirvanşahlar sarayı, Qoşa qala qapıları, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti, AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Milli Azərbaycan Tarix Muzeyi, Səadət sarayı və digər binalar ona sirli və möcüzəli bir məkanı xatırlatdı. O, müxtəlif mədəniyyət üslubunda tikilən bu əhəmiyyətli tarixi abidələrə baxdıqca düşünürdü: "Bu tikililər niyə belə fərqlidir?"*

***Daniyelin düşüncələrinə münasibət bildirin. Tikililərin nə üçün fərqləndiyini izah etməyə çalışın.***



Sizin əvvəlki siniflərdən dinlər və onların mədəniyyətlərdə öz əksini tapan mərasimləri barədə məlumatınız var. Bilirsiniz ki, dinlərin ortaq və oxşar cəhətləri vardır. Dini dəyərlər əxlaqımızda və mədəniyyətimizdə öz izini qoyur. Bütün dinlərin ortaq cəhəti insanları əxlaqlı və dürüst olmağa səsləməkdir. Bu cəhətlər mədəniyyətlərin formalaşmasında və mədəniyyətlərarası münasibətlərin yaranmasında mühüm rol oynamışdır.

Din mədəniyyətlərə təsir edərək memarlıq üslubundan tutmuş, bədii ədəbi nümunələrədək hər bir sahədə özünü göstərir. Dünyanın bütün ölkələrində insanları əxlaqa dəvət edən kitablar, müxtəlif bədii incəsənət nümunələri, əsərlər, filmlər və s. dini dəyərlərə əsaslanır.

*Hansı səmavi dinləri tanıyırsınız? Bildiklərinizi yada salın.*

LAYİHƏ

Azərbaycan memarlığının incilərindən biri də **Möminə xatun** türbəsidir. Memar Əcəmi Naxçıvani tərəfindən inşa edilən bu memarlıq abidəsinin üzərinə Qurani-Kərimdən ayələr həkk olunmuşdur.

Qədim islam dövlətləri ilə yanaşı, hətta Avropa dövlətlərində də islam mədəniyyətinin nümunələri vardır. Məsələn, İspaniyanın Qranada şəhərində yerləşən **Əlhambra sarayı** islam mədəniyyətinin ən məşhur tikililərindən biridir.



*Möminə xatun türbəsi*

*Azərbaycanda islam mədəniyyətini özündə əks etdirən daha hansı abidələri tanıyırsınız? Tanıdığınız abidələr haqqında məlumat verin.*



*Əlhambra sarayı*

Orta əsrlərdə Avropada rəssamlıq öz inkişafında xristian dininin elementlərini əks etdirirdi. Bu dövrün rəssamları çarmıxa çəkilmiş ***İsa peyğəmbər, Madonna**** və başqalarını təsvir edərkən dini köklərə əsaslanan məqamları nəzərə alırdılar.

Dünyanın hər yerində həm **islam**, həm **xristian**, həm də digər dinlərin xüsusiyyətlərini özündə əksetdirən mədəniyyət nümunələri vardır.



*Covanni Bellini. Yunan madonnası*

*Görkəmli Azərbaycan kulturoloqu F.T.Məmmədov yazır ki, mədəniyyət tarixi yaradıcı proses olub, xaos və cahillikdən biliyə, nizama, inkişafa və rifaha aparan doğru yoldur.*

**Söylənilən fikrə münasibətinizi bildirin.**

* ***Madonna*** *– İsa peyğəmbərin anası Məryəmə verilən ad*



LAYİHƏ

Hindistanda keçirilən **Mendi mərasimi** Hind mədəniyyətinin tərkib hissəsidir. Yəqin ki, siz hind filmlərinə baxmısınız. Burada hind xalqının özünəməxsus adət-ənənələrini də görmüsünüz. Ən çox musiqi və rəqslərlə əhatə olunan bu ənənələrin özünəməxsus dini kökləri vardır.


*Mendi mərasimində bəzənmiş əllər*

Təkcə Hindistan deyil, digər ölkələrlə də maraqlansanız, görərsiniz ki, bu ölkələrin adət-ənənələri və mədəniyyətləri, əslində, sitayiş etdikləri dinlərdən təsirlənərək inkişaf etmişdir.

Bütün dinlər insanları əxlaqlı olmağa dəvət edir. Əxlaqi dəyərlərə Qurani-Kərimdə də çox yer verilmişdir. Burada insanlar gözəl əxlaqa, yüksək ədəbə dəvət edilir. Müqəddəs kitabda elmə, təhsilə əhəmiyyət verilmiş və ağılla hərəkət edərək elmi həqiqətlərə çatmağın yolu göstərilmişdir.

*Gözəl əxlaq bütün yaxşılıqların təməlidir.*

***İmam Əli***

Azərbaycanda din dövlətdən ayrıdır. Buna baxmayaraq dini-mənəvi dəyərlər xalqın mənəviyyatı və mədəniyyəti ilə sıx bağlılıq təşkil edir. Əsasən ibadətdə islam dininə üstünlük verən ölkəmizdə islami dəyərlər əxlaqlı, namuslu, xeyirxah olmaq, qeybət və pis vərdişlərdən uzaq olmaq insanların mədəniyyətinin formalaşmasına öz təsirini göstərmişdir. Ulu öndər Heydər Əliyev milli-mənəvi və islami dini dəyərləri Azərbaycan xalqının sərvəti hesab edirdi.

**1.** *İslam dininin Azərbaycan mədəniyyətinə təsirini izah edin.*
**2.** *Dini-əxlaqi dəyərlərin mədəniyyətə təsiri barədə esse yazın.*
**3.** *İstədiyiniz hər hansı bir ölkənin mədəniyyətinə dinin təsiri barədə məlumat toplayın.*

LAYİHƏ

# 8. DOĞRU VƏ YANLIŞ DÜŞÜNCƏ




*Hər kəsin davranışı onun düşüncəsindən asılıdır.*

Eyni bir hadisə haqqında iki insan fərqli düşünə bilər. Qəlbimiz aynaya bənzəyir: əgər o təmizdirsə, ətrafımızı da özündə təmiz, aydın əks etdirir və biz gözəl düşünürük. Yox, əgər qəlb aynamız ləkəlidirsə, o zaman biz də gördüklərimiz haqqında yaxşı düşünməyi bacarmayacağıq.

Hər kəs qəlbinin təmizliyinin qayğısına qalmalıdır ki, düşüncələri də təmiz və gözəl olsun..




*Yuxarıdakı fikirləri yoldaşlarınızla müzakirə edin.*

LAYİHƏ

*Gözəl düşünən gözəl görər.* *Gözəl görən də həyatdan həzz alar.*




Görürsünüzmü, sevgi, hörmət hissi hər kəsdə var, ancaq hamı bu hissləri düzgün idarə etməyi bacarmır. Buna görə də biz, ilk növbədə, öz düşüncələrimizdən başlamalı, həmişə müsbət düşünməliyik.

İnsanlar bir şəxs, bir əşya və ya bir hadisə haqqında həm müsbət, həm də mənfi düşünə bilərlər. Mənəvi qaynaqlarımız da insanların həmişə, hər zaman gözəl düşünmələrini tövsiyə edir.

*Səhər məktəbə gələndə sinfin pəncərəsinin sındığını görürük. Sinif yoldaşlarımızdan biri dünən sinifdən sonuncu Akifin çıxdığını deyir və şüşənin onun tərəfindən sındırılması ehtimalını irəli sürür.*

*Akif şüşənin sınmasından xəbəri olmadığını deyir. Yoldaşlarından bir qismi Akifə inanır, bir qismi isə qəlbindəki tərəddüdü qova bilmir, ürəklərində bir şübhə qalır. Bu şübhə qanad açıb sinfi dolaşır. Biri Akifin qorxub etiraf etmədiyindən, digəri xidmətçi qadından, başqası keşikçidən, bir başqası da dünən həyətdə futbol oynayan qonşu sinfin oğlanlarından şübhələnir. Beləliklə, adi əhvalat barədə bir ehtiyatsız söz neçə-neçə qəlbi yaralayır.*

"Mən inanıram ki, bu onun əməlidir" kimi qəti ifadə insana hörmət yox, alçalma və peşmançılıq gətirər.

Siz də bilmədiyiniz, gözünüzlə görmədiyiniz bir hadisə haqqında qəti qərar verməyin. Hər şeyə şübhə ilə yanaşmayın.

LAYİHƏ

*İnsan özünün mənfi cəhətləri ilə həmişə mübarizə aparmalıdır. Əgər insan özünün səhv hərəkətlərini, xarakterindəki mənfi cəhətləri başa düşmürsə, onları təhlil etmirsə, o özünü tərbiyə edə bilməz, gələcək inkişafını təmin etməz.*

1. *"Gözəl düşünən gözəl görər" fikrini epiqraf seçib esse yazın.*
2. *"Doğru düşüncə" anlayışını yazılı olaraq izah edin.*
3. *İşlədilmiş bir ehtiyatsız sözün qəlbi necə yaralamasını həyatdan, oxuduqlarınızdan, eşitdiklərinizdən nümunələr göstərərək dəftərinizə yazın.*
4. *Verilmiş şəkillə bağlı müzakirə apararaq fikirlərinizi bildirin.*



## 9. DAVRANIŞIMIZIN MƏNƏVİ "MÜHƏRRİK" LƏRİ

*İnsanın hiss və duyğuları içərisində fikir və düşüncə mühüm yer tutur. Belə ki insanın düşüncəsinin onun davranışına təsir etdiyini bilirik. Bəs insanın davranışına təsir edən başqa hansı amillər vardır?*

İnsan bioloji, psixoloji, sosial və mənəvi varlıqdır. O, bioloji varlıq kimi mürəkkəb olduğu qədər, mənəvi varlıq olaraq da zəngin keyfiyyətlərə malikdir.

Mənəvi varlıq olaraq bizim ağlımız, sevgi, məhəbbət, qəzəb, qısqanclıq və s. kimi bir çox hiss və duyğularımız vardır. Bu hiss və duyğularımızın bir qismi bizim davranışlarımıza təsir edir.

Bu sadalananlar içərisində ağlın, qəzəbin və istəyin özünəməxsus yeri vardır. Gəlin növbə ilə onlara nəzər salaq.

LAYİHƏ

*İnsan ən çox ağlına güvənir, etibar edir və onun varlığı ilə fəxr edir. Ağıl nədir? Niyə insan ona bu qədər etibar edir? Heç kəs ondan narazılığını bildirmir?*



*Ağıl hər kəsdə var, amma hər kəs onu eyni cür "qidalandırmır".*

Hər şey ağılla idarə edilə bilər. Əgər insanlar öz hiss və duyğularına ağılla nəzarət edə bilsələr, bəşəriyyət bir çox bəlalardan xilas olar. Lakin hamı ağılla hərəkət edirmi?

Alim, müəllim, həkim, memar və digər peşə sahibləri insanlara xidmət edir. Amma oğru, cani, qatil isə tam əksinə, ağıldan düzgün istifadə etməyib bəşəriyyətə və insanlara zərər verir, təhlükəyə atır.

Məsələn, insan əlindəki kibritlə həm tonqal qalayıb qızına və yemək bişirə, həm də ətrafa od vurub yanğın törədə bilər.

İnsan istəksiz yaşaya bilməz. O, yemək, içmək kimi həyati tələbatlardan məhrum olarsa, məhv olar. Amma istəklərin də həddi vardır. İnsan hər istədiyindən arzuladığı qədər yox, ona lazım olan miqdarda istifadə etməyi bacarmalıdır. Buna da **iradə** deyirlər.

İnsan öz iradəsi ilə ya xeyir, ya da şər yolunu seçə bilər.

**Qəzəb** xoşa gəlməyən bir hadisə qarşısında intiqam arzusu ilə yaşamaq, hirs, ədavət, hiddət, düşmənçilik və hücum etməyə meyil yaradan hissdir.



LAYİHƏ

Lakin bütün hallarda qəzəb hissini idarə etməyi bacaran insan şücaətli olur. İnsanın hüquqlarını, şərəfini, ləyaqətini qorumaq üçün isə şücaət sahibi olmaq gərəkdir.

*Ağıllı tərbiyə, hünər, nəzakət,*
*Ağla nur verər, ürəyə qüvvət.*

***Nizami Gəncəvi***

*"Möminlərin ən kamil imanlısı gözəl əxlaqa sahib olanlardır".*

***Məhəmməd Peyğəmbər (s.ə.s.)***

*Ağıllı insan ağlın və çalışqanlığın hesabına daha yüksək qabiliyyət, bacarıq qazana bilər, ağılsız isə olan qabiliyyətlərindən səmərəli istifadə etməyi bacarmaz.*

***Atalar sözü***

1. *Ağlın mənəvi "mühərrik"lərdən ən önəmlisi olduğunu necə əsaslandırardınız? Fikrinizi yazın.*
2. *"İstəklərimizin sərhədi olmalıdırmı?" mövzusunda esse yazın.*
3. *Qəzəbin mənfi təsirləri haqqında həyatdan nümunələr göstərməklə fikirlərinizi bildirin.*
4. *Məktəbdə davranışınıza necə nəzarət edirsiniz? Bu barədə fikirlərinizi yoldaşlarınızla müzakirə edin.*



LAYİHƏ

## 10. DİLİN BƏLALARI: QEYBƏT VƏ İFTİRA

*İnsanlar yalanın nə qədər böyük bir günah olduğunu bilirlər. Onlar mümkün qədər yalandan qorunmaq məqsədilə nə yalan danışır, nə də yalana qulaq asırlar. Amma dilin bəlaları təkcə yalan danışmaqdan ibarət deyildir. Dilin başqa bəlaları da vardır. Sizcə, bunlar hansılardır?*



**Qeybət** və **iftira** təhlükəli bəlalardandır.

**Qeybət** bir insanın özü olmadığı yerdə onun xarici görkəmi, əxlaqi keyfiyyətləri, həyat tərzi ilə bağlı arxasınca xoşagəlməyən sözlərin danışılmasına, həmin şəxsin eşidəcəyi təqdirdə onun narahat olacağı, xətrinə dəyəcəyi söz-söhbətə deyilir.

İnsanlara böhtan atmaq, onlar haqqında iftira söyləmək, qeybət etmək günah sayılır. Çünki belə söz-söhbət insanlar arasındakı sevgi, məhəbbət, dostluq hisslərini zəiflədir, onları küskünlük, hətta düşmənçilik hissləri ilə əvəz edir. Bundan əlavə, nəinki sözlə, hətta davranış və mimikalarla belə başqasının nöqsan və çatışmazlıqlarını göstərmək, üzə vurmaq mənəviyyat və etik normalar baxımından düz deyil.

Qeybət başqalarını gözdən salmaq və alçaltmaqla özünü yüksək tutub başqalarında isə nöqsan axtarmağa alışdırar.

*Başqalarını pisləmək üçün edilən qeybətdən alınan zövq başqalarını alçaltdığımız ölçüdə özümüzü ucaltdığımızı sanmaqdır.* **Rene Dekart**

*Başqalarının sözlərini sənə çatdıran şəxs, bil ki, sənin də sözlərini onlara çatdırır.* **Həsən əl-Bəsri**

*Qeybətə qulaq asan şəxs qeybət edən şəxs qədər günahkardır.* **Ceyms Rendal**

LAYİHƏ

Qeybətin fərdi zərərindən başqa, ictimai zərəri də vardır. Belə ki qeybət insanlar arasındakı səmimi münasibətləri məhv edərək dedi-qodu, inciklik, küskünlük kimi arzuedilməz nəticələrə gətirib çıxarır. Qeybət olan ailələrdə, dost-tanış, qohum-qardaş arasında, cəmiyyətdə asayiş, sevgi, birlik olmaz. Hamı bir-birindən şübhələnər, bir-birinə güvənib səmimi söz danışmaz. Hal-əhval tutduğunuz adamlar sizdən ayrılanda içinizdə şübhə, tərəddüd hakim olar. "Görəsən, mən gedəndən sonra arxamca nə danışdılar? Necə qeybət etdilər?" kimi düşüncələr sizin rahatlığınızı əlinizdən alar. Gərəksiz yerə başqalarına qarşı mənfi hisslər oyadar.

İnsanlar haqqında deyilən yalan iftira hesab edilir. **İftira** da ruhun bir başqa "xəstəliyi"dir. İftira hər hansı bir şəxsə atılan böhtan və şərdir.

*Pas dəmiri çürüdüb məhv etdiyi kimi, qeybət də insanların əxlaqını çürüdər.*

**1.** *Qeybət etmənin mənfi xüsusiyyət olduğunu əsaslandırın.*

**2.** *İftira və böhtanın mənfi xüsusiyyət olduğunu əsaslandırın.*

**3.** *Din qeybət və iftiranı pisləyir. Mətni oxuyun və müzakirə edin.*

*Bir gün Peyğəmbərimiz (s.ə.s.) evdə oturub qonağı ilə söhbət edirmiş. Qonaq qalxıb evdən çıxdıqda Peyğəmbərimizin (s.ə.s.) xanımı (r.a.):*

*– Bah, bunun boyu necə balaca imiş! – deyir.*

*– Bax qeybət etdin! – deyə Peyğəmbər (s.ə.s.) onu xəbərdar edir.*

*– Mən ki olanı dedim?! – deyə xanımı (r.a.) təəccüblənir.*

*– Olmayanı desəydin, iftira etmiş, böhtan atmış olacaqdın, – deyə Peyğəmbərimiz (s.ə.s.) cavab verir.*



LAYİHƏ

# BİZİ ƏHATƏ EDƏN MÜHİT



11. **HƏRƏKƏT MATERİYANIN XASSƏSİDİR**
12. **TƏBİƏTDƏKİ QARŞILIQLI TƏSİRLƏR**
13. **ENERJİ VƏ ENERJİ ÇEVRİLMƏLƏRİ**
14. **İNSAN VƏ ƏTRAF MÜHİT**
15. **MEŞƏLƏR PLANETİMİZİN "AĞCİYƏR" İDİR**

LAYİHƏ

# 11. HƏRƏKƏT MATERİYANIN XASSƏSİDİR

*İlk dərs həftəsinin ikinci günü idi. Bu gün fizika dərsi var idi. Müəllim şagirdlərə 6-cı sinifdə keçdiklərini təkrarlatmaq məqsədilə suallar yazılmış vərəqələr payladı.*




*Vaqif gəminin üzməsi, yarpaqların Günəşə doğru çevrilməsi, almanın ağacdan düşməsi, xizəkçinin qarlı yamacdan sürüşməsi, Günəş şüalarının yeri isitməsi, ildırım çaxması və əlləri bir-birinə sürtdükdə onların qızması hadisələrini qruplaşdırmalı idi.*

***Sizcə, Vaqif bu hadisələri necə qruplaşdıra bilər?***

Ətrafımızdakı cisimlərin bir qisminin hərəkətli, bir qisminin isə nisbi sükunətdə olduğunu həmişə müşahidə edirik. Həyat və hərəkət arasında sıx əlaqə vardır.

Canlılara xas olan əlamətlərdən biri məhz hərəkətdir. Bizə hərəkətsiz kimi görünən hər hansı bir obyekt, əslində, mövcud olduğu sistemlə birgə hərəkətdədir. Bütün varlıqların hərəkətini adi gözlə müəyyən etmək bir qədər çətindir.

**Hərəkət** materiyanın mühüm xassələrindən biridir. Hərəkət materiyanın varlıq formasıdır.





*Zəlzələni, güclü külləkləri, vulkanı, bitkilərin qidalanmasını hərəkətlə necə əlaqələndirə bilərsiniz? Bunu yoldaşlarınızla müzakirə edin.*

Ətrafımızda baş verən **mexaniki, istilik, işıq, səs** hadisələrinin hamısı, hətta bizə hərəkətsiz görünən bitkilərin boy atması, yarpaqların işığa doğru, köklərin isə suya və torpağa doğru yönəlməsi hərəkətin mövcudluğu ilə əlaqədardır.

Bitkilər və digər canlıların hüceyrələrində su, mineral maddələr və bir çox üzvi maddələr hərəkət edir. Bu hərəkət nəticəsində canlılar qidalanır, tənəffüs



LAYİHƏ

edir, böyüyür və s. Ürəyin yığılıb-açılaraq orqanizmin digər üzvlərini qanla təchiz etməsi nəticəsində əksər heyvanlarda müxtəlif növ hərəkətlər baş verir.

*Küstümotu bitkisinin yarpaqlarına toxunduqda yarpaqlar dərhal müvəqqəti olaraq yığılır, günəbaxanın çiçək səbəti Günəşə doğru çevrilir. Bunlar hərəkətdə olmayan canlıların hərəkətidir.*



Top, uşaq arabası, qatar kimi cansız varlıqların hərəkət etməsi üçün onlara hər hansı bir qüvvə ilə təsir edilməlidir. *Necə bilirsiniz, iynəni, kağız qırıntılarını hərəkətə gətirmək üçün onlara hansı qüvvə təsir etməlidir?*

Təbiətdə baş verən hadisələr: zəlzələ, sunami, atmosfer hadisələri də hərəkət nəticəsində baş verir. Ən böyük dağıdıcı qüvvəyə malik olan zəlzələ zamanı Yer səthində müəyyən ərazi qalxa, müəyyən ərazi isə enə bilər.

Atmosferdə, demək olar ki, hər gün müxtəlif hadisələrin baş verməsinin şahidi oluruq. Bu hadisələrin bir qismi dağıntı, insan tələfatı ilə nəticələnir. Havanın hərəkəti nəticəsində yaranan küləyin gücünün artması qorxulu təbiət hadisələrinə səbəb ola bilir. Tornado və tayfunlar bu cür dağıdıcı külək növləridir.

Dünya okeanında su daim hərəkətdədir. Okeanda suyun hərəkətinə külək, sualtı zəlzələ və vulkan püskürmələri ilə yanaşı, Ay və qismən Günəşin cazibə qüvvəsi təsir edir. Bu qüvvənin təsiri nəticəsində suyun qurunu basması – *qabarma*, sonra isə geri qayıtması – *çəkilmə* baş verir.

Gördüyünüz kimi, təbiətdə baş verən hadisələr səbəbsiz deyil. Bu hadisələrin sirrini açmaqda sizə əldə edəcəyiniz bilik və bacarıqlar yardımçı olacaq.



*Suyun çəkilmə hadisəsi*

1. *Otağın bir küncünə ətir dağılarsa, onun iyi tez bir zamanda bütün otağa yayılar. Sizcə, buna səbəb nədir?*
2. *Su damcıları krandan bir düz xətt üzrə düşür. Bunu hərəkət adlandırmaq olarmı? Səbəbini izah edin.*
3. *Nüvə silahının hər hansı bir ərazidə sınaqdan keçirilməsi ətraf ərazilərə də **radiasiyanın*** yayılmasına səbəb olur. Bunu necə izah edə bilərsiniz?*
4. *Dağların hansı təbii proseslərin nəticəsində yaranması haqqında məlumat toplayın.*

* ***Radiasiya*** *– hər hansı bir cismin elektromaqnit dalğaları şüalanması; cismin buraxdığı elektromaqnit şüa enerjisi*



LAYİHƏ

# 12. TƏBİƏTDƏKİ QARŞILIQLI TƏSİRLƏR

*Qədim zamanlarda insanlar təbiətdə baş verən hadisələrin səbəblərini bilmirdilər. Zaman keçdikcə aparılan müşahidələr, araşdırmalar, tədqiqatlar təbiətdə baş verən hadisələrin səbəbləri haqqında çoxlu məlumat əldə etməyə imkan yaratdı.*



*Təbiətdə baş verən hadisələr müxtəlif olduğu kimi, onlar arasındakı qarşılıqlı təsir də müxtəlifdir. Bir çox hadisələrin başvermə səbəbi də məhz qarşılıqlı təsirlə izah olunur.*

***Təbiətdə baş verən hansı hadisələri qarşılıqlı təsirlə əlaqələndirmək olar?***

***Verilmiş mətnə əsasən qarşılıqlı təsirləri müəyyənləşdirin.***

*Qızmar yay günlərindən biri idi. İki dost alma ağacının kölgəsində oturmuşdu. Onlardan biri cibindən iki rezin şar çıxarıb üfürdü və bir-birinə sürtdü. Şarları əlinə toxundurduqda onların əlinə yapışdığını gördü. Digəri isə üfüqün cəhətlərini müəyyən etmək üçün kompası işlək vəziyyətə gətirdi. Bu zaman əsən külək ağacdan bir neçə almanı yerə saldı.*



***Təbiətdə dörd növ qarşılıqlı təsir mövcuddur:***

| | | | |
|---|---|---|---|
| ***qravitasiya*** | ***elektromaqnit*** | ***qüvvətli qarşılıqlı təsir*** | ***zəif qarşılıqlı təsir*** |

Qarşılıqlı təsirin bu növləri barədə ətraflı məlumatı siz yuxarı siniflərdə əldə edəcəksiniz.



LAYİHƏ

Bütün cisimlər hərəkət prosesində bir-birinə qarşılıqlı təsir edir. Müşahidə olunan qarşılıqlı təsirlər müxtəlifdir: əsən külək ağacı silkələyir, meşə zolağı isə küləyin sürətini azaldır. Bütün cisimlər bir-birini cəzb edir. Maqnitin eyni işarəli qütbləri bir-birini itələyir, müxtəlif işarəli qütbləri isə bir-birini cəzb edir.

***Qarşılıqlı təsir cisimlər arasında toxunma ilə və ya toxunma olmadan da baş verə bilər.***



Dəmir, nikel kimi maddələrlə maqnit arasında toxunma olmasa da, qarşılıqlı təsir mövcuddur. Maqnitdən soyuducuların qapılarında, radio və televizorların hazırlanmasında, ağır yüklərin qaldırılmasında geniş istifadə olunur. Lakin bankomat və telefon kartları maqnitdən uzaq tutulmalıdır. Maqnit onların yararsız hala düşməsinə səbəb ola bilər.

Futbol topunun istiqamətini dəyişmək, çantanı qaldırmaq, süngəri sıxmaq üçün qüvvə sərf etmək lazımdır. Bu zaman qüvvənin təsirindən futbol topu və çanta yerini dəyişəcək, süngər yığılacaq, sonra isə əvvəlki vəziyyətinə qayıdacaq.

*Yun köynəyi əyninizdən çıxaranda, saçınızı darayanda və digər hallarda kiçik qığılcımların yaranmasını müşahidə edirsiniz. Bu halların başvermə səbəbini necə izah edə bilərsiniz?*

Qarşılıqlı təsir olmasa, insan Yer üzərində gəzə, nəqliyyat vasitələri isə hərəkət edə bilməz. Yer səthində hərəkət etdiyimiz zaman Yeri özümüzdən geriyə itələdiyimiz kimi, Yer də bizi həmin qüvvə ilə irəliyə doğru itələyir. Bu qüvvə nə qədər böyük olarsa, hərəkətimiz də bir o qədər asan olar.

Təbiətdə baş verən hadisələrin səbəbini və nəticələrini bilmək olduqca vacibdir. Bunun sayəsində insan faydalı hadisələrin mexanizmini öyrənmək və onların gedişini sürətləndirməklə yanaşı, bu hadisələr haqqında qabaqcadan məlumat verə bilər. Zərərli hadisələrin səbəbini bildikdən sonra isə onların qarşısını almağın yollarını müəyyənləşdirmək olar.

**1.** *Buludlu havada şimşək çaxmasının səbəbini araşdırıb dəftərinizə yazın.*

**2.** *Günəş öz ətrafındakı planetləri cəzb edir və onları uzaqlaşmağa qoymur. Bir anlığa fikirləşsək ki, Günəşin cazibə qüvvəsi yoxdur. Sizcə, onda nə baş verə bilər?*

LAYİHƏ

# 13. ENERJİ VƏ ENERJİ ÇEVRİLMƏLƏRİ

*Cisimlər müəyyən qüvvənin təsiri altında hərəkət edərkən iş görür. Cisimlərin işgörmə qabiliyyətini isə enerji xarakterizə edir. Bu anlayış həm canlı, həm də cansız aləmə aiddir.*

***Enerjinin növlərini və ən mühüm xassəsini yadınıza salın.***




*Verilmiş sxemi yoldaşlarınızla müzakirə edin.*

Enerjinin müxtəlif növləri vardır: ***mexaniki, istilik, elektrik, kimyəvi*** və s. Enerji bir şəkildən başqa şəklə düşür. Yer kürəsində əsas enerji mənbəyi Günəşdir.

Günəş enerjisinin bir hissəsini udan Yer səthinin temperaturu yüksəlir. Beləliklə, havanın Yerlə təmasda olan hissəsi qızaraq genişlənir, sıxlığı azalır və yuxarı qalxır. Bu, yüksələn hava kütləsi yaradır. Hava axınında olan su buxarı kondensasiya edərək bulud əmələ gətirir. Yuxarı qalxmış havanın yerini ətrafdakı hava tutur, bu zaman külək əmələ gəlir. *Bu zaman hansı enerji çevrilmələri baş verir?*

Günəşdən gələn enerjinin bir hissəsi Yer tərəfindən udulduğu zaman Yerin daxili enerjisinin artması müşahidə olunur və buna uyğun olaraq temperatur yüksəlir. Bu enerjinin bir hissəsi Yerlə təmasda olan havaya ötürülür. Havadakı qaz molekullarının kinetik enerjisi artır. Su damcılarının və qaz molekullarının qalxması nəticəsində kinetik enerji azalır, potensial enerji artır. Gec və ya tez yağış və ya dolu zamanı su damcılarının potensial enerjisi kinetik enerji halında xaric olunur.

***Göründüyü kimi, cansız təbiətdə də enerjinin bir növünün digərinə çevrilməsi baş verir və məlum olur ki, enerji heç nədən yaranmır və itmir, yalnız bir haldan başqa hala keçir.***



LAYİHƏ

Beləliklə, Günəşin istilik enerjisi dolu, külək və yağış halında mexaniki enerjiyə çevrilir. Atmosfer yağıntıları çayların əsas qida mənbəyidir. Çay öz məcrasına yağan yağıntıları böyük ərazilərdən qolları ilə yığır. Bəs insanlar bu suyun enerjisindən necə istifadə edirlər və bu zaman hansı enerji çevrilmələri baş verir?

Yerə nəzərən çaylardakı su həm kinetik, həm də potensial enerjiyə malikdir. Bəndlərin köməyi ilə çaydakı suyun səviyyəsini qaldırarkən biz onun potensial enerjisini artırmış oluruq. Məsələn, Mingəçevir SES-in hündürlüyü 80 m-dir. Belə bir hündürlükdə hətta 1 $m^3$ suyun potensial enerjisi neçə min Couldan çoxdur. Su yuxarıdan aşağıya tökülən zaman onun potensial enerjisi kinetik enerjiyə çevrilir. Hərəkət edən suyun kinetik enerjisindən turbinin pərlərini hərəkətə gətirmək üçün istifadə edirlər. Bu turbin elektrik cərəyanı yaradan elektrik generatorunun valını hərəkətə gətirir. Beləliklə, insanlar yuxarıdan tökülən suyun enerjisindən elektrik enerjisi almaq üçün istifadə edirlər.

***Canlı təbiətdə də enerji çevrilmələri baş verir və canlı orqanizmlər özlərini enerji ilə təmin edirlər.***



Canlılar üçün lazım olan enerji qida ilə daxil olan mürəkkəb kimyəvi üzvi birləşmələrdə toplanıb. Bu cür maddələrə zülallar, yağlar və karbohidratlar daxildir. İnsan həm bitki, həm də heyvan mənşəli qidalar qəbul edir. Bitkilər üzvi maddələri fotosintez nəticəsində Günəş şüalarının enerjisindən istifadə etməklə yaradır. İnsan orqanizminin hər bir hüceyrəsində isə zülallar, yağlar və karbohidratların daha sadə molekullara parçalanması baş verir. Bu zaman enerji yaranır.

Başqa sözlə desək, qida ilə daxil olan mürəkkəb üzvi maddələrin potensial enerjisi:

– *istilik enerjisinə (bədən temperaturunu sabit saxlamaq üçün);*
– *mexaniki enerjiyə (əzələ yığılmaları zamanı);*
– *elektrik enerjisinə (sinir impulslarını ötürən zaman) çevrilir.*

Hətta tam sakit halda belə insan enerjisinin bir hissəsini istifadə edir. İnsan orqanizmində bir dəqiqə belə dayanmayan fizioloji proseslərə daim enerji sərf olunur. Hüceyrələrdə mübadilə prosesləri gedir, ürək, böyrək, qaraciyər və digər orqanlar fəaliyyət göstərir.

LAYİHƏ

Enerjinin bir-birinə çevrilməsi hallarına gündəlik həyatınızda da rast gəlirsiniz. Elektrik mühərriklərində elektrik enerjisi mexaniki enerjiyə, digər məişət avadanlıqlarında isə elektrik enerjisi mexaniki, istilik, işıq, səs enerjisinə çevrilir.

Dəmir parçasına çəkiclə zərbə vursanız, zərbə dəyən hissənin istiliyinin artdığını müşahidə edəcəksiniz. Bu zaman mexaniki enerjinin istilik enerjisinə çevrilməsi baş verir. Şüalanma nəticəsində işıq enerjisi istilik enerjisinə çevrilir.

Deməli, təbiətdə baş verən hadisələr ***qarşılıqlı təsir, hərəkət və enerji çevrilmələri*** ilə əlaqədardır. Bütün enerji çevrilmələri üçün bir qayda həmişə düzgün hesab olunur: ***enerji itmir və heçdən yaranmır***. O bir şəkildən digər şəklə çevrilir.

*Qida rasionunda həm də yağlardan istifadə olunur. İnsan ac qaldıqda bədəndəki yağlar enerji mənbəyi olur. Ancaq normadan çox yağın qəbulu artıq çəki yaradır və piylənməyə səbəb olur.*

**1.** *Soyuq havada insanlar şaxtanı hiss edən zaman nə üçün ayaqlarını yerə vuraraq atılıb-düşürlər? Fikirlərinizi əsaslandırın.*

**2.** *Aşağıdakılara əsasən enerji çevrilmələrini müəyyənləşdirin:*

*Vedrədəki suyun Günəş şüaları altında isinməsi* ______________________

*Elektrik lampasının yanması* ______________________

*Ütünün isinməsi* ______________________

*Dəmir parçasının günəş şüaları altında isinməsi* ______________________

*Suyun buxarlanması* ______________________

*Meşə yanğını* ______________________

*İldırım çaxması* ______________________

**3.** *Səhv fikirləri seçib onların düz variantlarını yazın:*

*Enerji bir şəkildən başqa bir şəklə çevrilmir.*

*Sakit vəziyyətdə insan enerji sərf etmir.*

*Şüalanma nəticəsində işıq enerjisi istilik enerjisinə çevrilir.*

*Su yuxarıdan tökülən zaman onun kinetik enerjisi potensial enerjiyə çevrilir.*

LAYİHƏ

# 14. İNSAN VƏ ƏTRAF MÜHİT

*Təbiətdə baş verən **antropogen dəyişikliklər*** əksər hallarda müsbət xarakter daşıyır. Lakin təbii proseslərə müdaxilə edən insan bir sıra hallarda təbiət qanunauyğunluqlarını pozur. Bu da arzuolunmaz fəsadlara səbəb olur.*

***Müasir dövrdə insanın ətraf mühitə mənfi və müsbət təsiri nədən ibarətdir?***

Təbiətə düzgün yanaşmadıqda, təbii sərvətlərdən məqsədyönlü istifadə etmədikdə ona böyük ziyan vurulur. Təbiətə vurulan ziyan insanın özü üçün bəlaya çevrilir, onun sağlamlığı üçün təhlükə yaradır və mühitin dəyişməsinə güclü təsir edir.

Atmosferin çirklənməsinin sərhədi yoxdur. Nüvə silahının hər hansı bir ərazidə sınaqdan keçirilməsi qonşu ərazilərdə də radiasiyanın artmasına səbəb olur. Çünki güclü küləklər radiasiyaya məruz qalmış toz hissəciklərini uzaq məsafələrə yaya bilir.





Zəhərli maddələrin atmosferdə yayılmasında ***pestisidlərin***** səpildiyi əkin sahələrinin də rolu az deyil. Belə halda zərərli maddələr küləklə uzaq məsafələrə yayılır və müxtəlif fəsadlar törədir.

* ***Antropogen dəyişikliklər*** *– təbiətdə insanın təsiri ilə baş verən hadisələr*

** ***Pestisid*** *– ziyanvericilərə, xəstəliklərə və alaq otlarına qarşı istifadə edilən kimyəvi və bioloji aktiv maddə*

LAYİHƏ

Tez-tez mətbuatdan, radio və televiziyadan ozon təbəqəsinin nazikləşdiyi, hətta bəzi yerlərdə deşildiyi haqqında məlumatlar eşidirsiniz. Alimlər bunun səbəbini atmosferdə bir sıra maddələrin, əsasən də ***freonların**** çoxalması ilə əlaqələndirirlər. Ozon qatının nazikləşməsi nəticəsində Yerdə ultrabənövşəyi şüaların artması insanlarda dəri xəstəliklərinin çoxalmasına, immun sisteminin zəifləməsinə səbəb olur, flora və faunaya ciddi təsir göstərir.

*1994-cü ildə BMT-nin Baş Assambleyası 16 sentyabr tarixini Beynəlxalq Ozon Təbəqəsinin Mühafizəsi Günü elan etmişdir.*



1980-ci ildə bir çox dövlətlər tərəfindən özündə ozon qatını dağıdan maddələrin istehsalının dayandırılmasını əksetdirən "Monreal" protokolu imzalanmışdır.

Su mənbələri neft və məişət tullantılarının, zavod və fabriklərin, çirkab suları hesabına çirkləndirilir. Suyun çirklənməsi bir çox canlıların sayını tədricən azaldır, eləcə də insanın yaşamasını təhlükə altına alır.

*Azərbaycan ərazisində uzun illərdir ki, neft istehsal edilir. Keçmişdə neft "açıq fontan" üsulu ilə çıxarılırdı. Uzun müddət həm sahildə, həm də açıq dənizdə fəaliyyət göstərən neft quyularından atılan çirkab sular, boru kəmərlərindən sızmalar, qəza hallarında dənizə atılan külli miqdarda neft Xəzərin ekoloji mühitinə mənfi təsir göstərmişdir. Suyun bu cür çirklənməsinin canlılara təsirini yoldaşlarınızla müzakirə edin.*

Hazırda insanları narahat edən problemlərdən biri də planetdə temperaturun normadan bir neçə dərəcə yuxarı olmasıdır.

***İstixana effekti***** deyilən bu problemi də insan özü yaratmışdır. Bunun nəticəsində iqlim dəyişiklikləri baş vermişdir ki, bu da qütb buzlaqlarının əriməsinə, bol yağışlara, sellərə, bəzi yerlərdə isə quraqlığa səbəb olmuşdur.

* ***Freon*** *– qaz və ya maye halında olan bir qrup maddə*
** ***İstixana effekti*** *– havada karbon qazının çoxalması hesabına temperaturun artması*



LAYİHƏ

Torpaq bir çox canlıların yaşayış məskənidir. İnsanlar torpaqdan bol məhsul əldə etmək üçün ona gübrə verirlər. Gübrə torpağın məhsuldarlığını artırsa da, artıq miqdarda verildikdə onu yararsız hala salır. Çox gübrə verilmiş torpaqda bitən meyvə və tərəvəzi yemək insanda zəhərlənmələrə, müxtəlif xəstəliklərin yaranmasına, torpaqdakı canlıların məhvinə səbəb olur.



*Neftlə çirklənmiş ərazi*

İri zavodların ətrafında da torpaqlar çirkləndirilir. Zavodların borularından çıxan zəhərli maddələr tədricən ətrafa çökür və bu torpaqları yararsız hala salır. Bakının neft mədənləri ətrafında torpaqlar neftlə çirklənmişdir. Əsasən, Abşeron yarımadasında, Qobustanda, Şirvan-Muğan zonasında torpaqlar neft və neft məhsulları ilə yararsız hala salınmışdır.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006–2010-cu illər üçün Kompleks Tədbirlər Planı"nı təsdiq etmişdir.*

Hazırda bəşəriyyət üçün təbiətin qorunması qlobal problemdir. Təbiətin qorunması üçün müxtəlif beynəlxalq və dövlətlərarası müqavilələr bağlanır, layihələr həyata keçirilir, sazişlər imzalanır.

**1.** *Məktəbin və yaşadığınız ərazinin yaxınlığında ətraf mühitin çirklənməsinə səbəb olan mənbələrin siyahısını tərtib edin.*
**2.** *Sağlam ekoloji mühitin insan sağlamlığına təsirini araşdırın.*
**3.** *Canlıların təbii birliklərində yaşayan növlərdən birini məhv etdikdə bu digər növlərə də öz təsirini göstərir. Əgər təbiətdə torpaq arılarının yuvaları dağıdılarsa, o zaman nə baş verər?*
**4.** *Mətni tamamlayın.*
*Bitkilərdəki ziyanvericilərə və xəstəliktörədicilərə qarşı zəhərli kimyəvi maddələrlə mübarizə aparılması digər canlılara da mənfi təsir göstərir. Zəhərli kimyəvi maddələrdən istifadə zamanı* ____________________

LAYİHƏ

## 15. MEŞƏLƏR PLANETİMİZİN "AĞCİYƏR" İDİR

*Leyla Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təşkil olunmuş "Meşələr planetimizin "ağciyər"idir, meşələri qoruyun!" mövzusunda keçirilən inşa müsabiqəsinin qalibi olmuşdur.*

***– Sizcə, nə üçün meşələri planetimizin "ağciyəri" adlandırırlar?***

***– Meşələrin məhv olması nə üçün qlobal problem hesab olunur?***

Respublikamızın meşə ilə örtülən ümumi ərazisi 12%-ə yaxındır. Ekoloqlar, alimlər müasir dövrümüzdə həyəcan təbili çalırlar ki, meşələr sürətlə qırılır. Ekoloji böhran get-gedə kəskinləşir. Bu isə ətraf mühitin qorunması sahəsində qlobal miqyaslı layihələrin həyata keçirilməsini tələb edir. Dünya alimləri meşələri təkcə xammal mənbəyi deyil, planetdə ekoloji vəziyyətin yaxşılaşdırılması üçün əsas mənbə hesab edirlər. Meşələr qırıldıqca bitki növləri tükənir, ətraf mühit çirklənir, qida rasionumuz kasıblaşır, bu isə insan orqanizmində müxtəlif xəstəliklərin yaranmasına səbəb olur.





***Verilmiş nümunələri insanın meşələrə birbaşa və dolayı yolla təsirinə uyğun qruplaşdırın və bu təsirlərin nəticələrini müzakirə edin:***
*ağacların qırılması, bataqlıqların qurudulması, tonqalların qalanması, qarışqaların məhv edilməsi, heyvanların ovlanması, yuvaların dağıdılması*

Havanın oksigenlə zənginləşməsi, xəstəliktörədən bakteriyaların məhv olması, torpaq sürüşmələrinin qarşısının alınması, karbon qazının yarpaq vasitəsilə udulması nəticəsində havanın təmizlənməsi və s. meşənin nə qədər əhəmiyyətli olduğunu bir daha sübut edir. Ancaq, təəssüf ki, insanlar həm birbaşa, həm də dolayı yolla meşələrin məhvinə səbəb olurlar.

LAYİHƏ

Meşə yanğınları planetin ekoloji tarazlığının pozulmasına səbəb olur. Meşələr karbonun və suyun dövr etməsində mühüm rol oynayır, meşə yanğınları isə bu həyati prosesləri pozur. Yanma nəticəsində atmosferə çoxlu miqdarda müxtəlif kimyəvi birləşmələr, ən əsası isə karbon qazı atılır.



Yanğınlar meşə ekosistemlərinə, torpağın üst qatına dağıdıcı təsir göstərir, havanı və suyu çirkləndirir. Nəinki meşə yanğınları, istənilən yanğın növü ekoloji ziyan verir.

*Gəlin heç bir gözəlliyi bizlərdən əsirgəməyən ana təbiətə, onun bütün sərvətlərinə qayğı, sevgi və məhəbbətlə yanaşaq, onları qoruyub saxlamağa çalışaq.*

Meşələrin məhvi atmosferdə yalnız oksigenin azalmasına səbəb olmur. O həm də quraqlığın, ***torpaq eroziyasının****** və sürüşmələrin əmələ gəlməsinə, səhralaşmanın sürətlənməsinə, daşqınlara, selə, qasırğalara, iqlimin və relyefin kəskin dəyişilməsinə və s. səbəb olur.

Planetin əhalisi üçün "səhralaşma" vahiməli sözdür. Onun həlli bütün ölkələrin səylərinin birləşdirilməsini tələb edir. Buna görə də BMT tərəfindən səhralaşmaya qarşı mübarizə konvensiyası qəbul edilmişdir.

* ***Torpaq eroziyası*** *– torpağın yuyulması, dağılması*

LAYİHƏ

Respublikamızda son illər meşələrin qırılmasının qarşısının alınması istiqamətində bir sıra tədbirlər həyata keçirilir. Meşələrin sahəsi hər il 4 min hektar artırılır. Bu gün Azərbaycan dövləti ekologiya ilə bağlı əksər beynəlxalq konvensiyalara qoşulur. Problemlə bağlı ölkə prezidentinin müvafiq sərəncamları, yaşıllıqların qorunması üçün tərtib olunan müxtəlif dövlət proqramları dövlətin təbiətə qayğısını əks etdirir.



*Eroziyaya uğramış torpaq sahəsi*

1. *Aşağıda sadalananlardan meşəyə ziyan vuranları seçin:* ***kibrit, bıçaq, tonqal, su hövzələrinin qurudulması, ağacların kəsilməsi, kompas, quş yuvası, velosiped, maqnitofon, balıq toru, telefon, kəndir, mişar, axar suların istiqamətinin dəyişdirilməsi, meşə torpaqlarının daşınması.***
   *Fikirlərinizi əsaslandırın.*
2. *Fuad ucqar kənddə yaşayır. Kəndə "mavi yanacağın" verilməsi müvəqqəti dayandırıldığından o, həyətyanı sahələrindən sobanı qalamaq üçün ağac kəsmək istəyir. Fuad üzərində quş yuvası olan ağacı kəsmək fikrinə düşür, ancaq buna əli gəlmir. Bu ağacı kəsərsə, Fuadın təbiətə vura biləcəyi ziyan barədə mətn tərtib edin.*
3. *Meşənin qırılması nəticəsində aşağıdakı qida zənciri məhv ola bilər. Bu qida zəncirini dəftərinizdə tamamlayın və yoldaşlarınızla müzakirə edin.*




**Təqdimat mövzuları**

- *Yaşadığınız ərazidəki ağacların qırılmasının ətrafdakı canlılara təsiri*
- *Dövlət tərəfindən meşələrin qorunması məqsədilə həyata keçirilən tədbirlər*
- *Azərbaycanda müxtəlif heyvan növlərinin sayının azalma səbəbləri*

LAYİHƏ

# CƏMİYYƏTİN TƏLƏBATI



16. **DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİMİZ**
17. **DÖVLƏTİN İDARƏETMƏ FORMALARI**
18. **CƏMİYYƏTİN HƏYATI**
19. **CƏMİYYƏT VƏ TƏŞKİLATLAR**
20. **HÜQUQ SAHƏLƏRİ**
21. **NORMATİV HÜQUQİ SƏNƏDLƏR**
22. **KONSTİTUSİYADA TƏHSİL HÜQUQU**
23. **ƏMƏK VƏ ONUN NÖVLƏRİ**
24. **İQTİSADİ PROSESLƏRDƏ ƏMƏYİN ROLU**

LAYİHƏ

# 16. DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİMİZ

*Uğur Azərbaycanda doğulub. O, ölkənin paytaxtı Bakıda yaşayır. Xalası qızı İnci isə azərbaycanlı olsa da, Moskvada doğulub və orada böyüyüb. Azərbaycana qonaq gələn İnci Uğurdan ölkəmiz haqqında məlumat verməyi xahiş etdi. Uğur ona tarixi yerlərimiz və dövlətimiz haqqında məlumat verdi.*

***Siz də dövlətimiz haqqında bildiklərinizi sinif yoldaşlarınızla müzakirə edərək dəftərinizdə qeyd edin.***




Azərbaycan qədim dövlətçilik ənənələrinə malik ölkələrdən biridir.

Azərbaycan ərazisində yaranmış ilk dövlət Mannadır. Üç yüz ilə yaxın bir müddət ərzində mövcud olmuş bu dövlət süqut etdikdən sonra Azərbaycan ərazisində yeni dövlətlər yarandı.

*Azərbaycan ərazisində yaranmış hansı dövlətləri tanıyırsınız? Manna dövlətinin idarəetmə formasını xatırlayın və münasibət bildirin.*




Strateji baxımdan olduqca böyük əhəmiyyət kəsb edən, zəngin təbii sərvətlərə malik olan Azərbaycan torpaqları daim yadelli işğalçıların basqınlarına məruz qalmışdır. Lakin bir-birini əvəz edən bu yürüşlər dövlətçilik ənənəmizə mane ola bilməmiş, torpaqlarımızda yaranmış dövlətlər iqtisadi, siyasi və mədəni yüksəlişə nail olmuşlar.

XVI əsrin əvvəllərində Azərbaycan dövlətçiliyi özünün yeni bir tarixi mərhələsinə qədəm qoydu. I Şah İsmayıl Azərbaycan torpaqlarını öz hakimiyyəti altında birləşdirə bildi. Mərkəzləşmiş Azərbaycan Səfəvilər dövləti xalqımızın tarixində böyük rol oynadı. Dövlətin başında səfəvilər sülaləsinin nümayəndələrindən olan hökmdarlar dururdu.

LAYİHƏ

*Azərbaycanın dövlətçilik ənənəsinə malik olduğunu əsaslandırın.*

1828-ci ildə Rusiya və İranın işğalçılıq siyasəti nəticəsində torpaqlarımız iki hissəyə bölündü. Azərbaycanın şimalı Rusiyanın, cənubu isə İranın tabeliyinə düşdü. Şimali Azərbaycanda 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti yarandı və bu cümhuriyyət müsəlman Şərqində ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi oldu.

*Azərbaycan Xalq Cümhuriyyətinin demokratik dövlət olmasını sübut edin.*

Bütün sahələrdə islahatlar aparan Azərbaycan Xalq Cümhuriyyəti xarici siyasətdə uğurlu addımlar atdı. Dünyanın bir sıra ölkələri Azərbaycan Xalq Cümhuriyyətini rəsmi olaraq tanıdı. 23 ay ərzində böyük uğurlara imza atan bu dövlət sovet Rusiyası tərəfindən 1920-ci ildə süquta uğradıldı. SSRİ-nin (Sovet Sosialist Respublikaları İttifaqı) tabeliyində təqribən 70 il ərzində müstəqilliyindən məhrum olan xalqımız 1991-ci ildə yenidən öz dövlətçiliyini bərpa etdi. Dövlətçilik ənənələrinə sadiq qalan Azərbaycan dünya ölkələrinin idarəetmə təcrübəsinə əsaslanaraq öz idarəetmə formasını yaratdı.

Müstəqilliyini əldə etdikdən sonra ölkəmiz 1995-ci il 12 noyabr tarixində Azərbayan Respublikasının Konstitusiyasını qəbul etdi.

Konstitusiya xalqın mənafeyini özündə əks etdirən dövlətin ali qanunudur.

***Azərbaycan Respublikası Konstitusiyasından çıxarış***

*Maddə 26.*

*I. Hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır.*

*II. Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir.*

*Konstitusiyamızın bu maddəsini oxuyub müzakirə edin.*

LAYİHƏ



Azərbaycan unitar Respublikadır. Ölkənin ən ali hüquqi sənədi Konstitusiyadır. Respublika idarəetmə forması hələ qədim Romada həyata keçirilmiş xalq tərəfindən dövlətin idarəetmə formasıdır. Ölkəmizdə prezidentli respublika quruluşu mövcud olduğu üçün xalq səsvermə yolu ilə ölkənin prezidentini seçir.

İcra Hakimiyyəti prezidentə məxsusdur. Qanunverici hakimiyyət Milli Məclis tərəfindən həyata keçirilir ki, Milli Məclisin deputatları xalqın səsverməsi yolu ilə seçilir. Respublikamızda məhkəmə hakimiyyəti məhkəmələrə məxsusdur.



*Tarixən Azərbaycanda mövcud olan dövlət idarəetmə formasını fərqləndirin.*

Tarix dərslərindən də bildiyimiz kimi, müxtəlif vaxtlarda ölkəmizdə müxtəlif idarəetmə formaları olmuşdur. Bu idarəetmə formalarından ən uğurlusu hazırda həyata keçirilən idarəetmə formasıdır ki, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin və ərazi bütövlüyünün təminatçısıdır.

Azərbaycan Respublikası bu gün dünya siyasətində uğurlu siyasi addımlar atır. Ulu öndər Heydər Əliyevin o dövrdə həyata keçirdiyi uzaqgörən siyasəti bu gün ölkəmizin inkişafına imkanlar açmış və bu siyasətin davamçısı İlham Əliyev dövlətçilik naminə bir sıra islahatlar həyata keçirməkdədir.

Ulu öndər Heydər Əliyevin başladığı yolu davam etdirən prezidentimiz bütün imkanlardan istifadə edərək yorulmadan çalışır və bu istiqamətdə uğurlu addımlar atır.

Onun siyasəti nəticəsində Qarabağ ərazisi ermənilərdən tamamən azad edildi və torpaqlarımızda Azərbaycan bayrağının dalğalanması reallaşdı.



1. *"Qədim dövlətçilik ənənələrimiz" mövzusunda esse yazın.*
2. *Səfəvilər dövləti və Azərbaycan Respublikasının dövlət idarəetmə formalarını fərqləndirin.*
3. *Ulu öndər Heydər Əliyevin dövlətimizin tarixindəki rolu haqqında müzakirələr aparın. Bu barədə fikirlərinizi dəftərinizə qeyd edin.*



LAYİHƏ

# 17. DÖVLƏTİN İDARƏETMƏ FORMALARI

*Hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdir. Xalqımız səsvermə yolu ilə onu özünə rəhbər seçib.*

***Bəs, görəsən, dünyanın bütün dövlətlərində bu beləmidir? Gəlin birgə müəyyən edək.***




Dövlətin idarəetmə forması dedikdə aşağıdakılar nəzərdə tutulur:

**Dövlət başçısının funksiyası, dövlət orqanlarının necə yaranması, səlahiyyətlərin bölgüsü** və s.

Bu baxımdan bütün dövlətlər **monarxiya** və **respublikaya** bölünür.

***Monarxiyada**** hakimiyyət dövlət başçısının – monarxın əlində cəmləşir. Bu ali hakimiyyət, adətən, irsi olur. Monarx *(çar, kral, şah)* təkbaşına dövləti, hakimiyyəti idarə edir. Müəyyən zaman keçdikdən sonra bu idarəçilik sistemində də bir sıra dəyişikliklər baş vermişdir. Ona görə də monarxiya idarəçiliyinin özü də **mütləq** və **məhdud monarxiya**ya (konstitusiyalı monarxiya) bölünür.

**Mütləq monarxiya**da ali dövlət hakimiyyəti bütövlükdə bir şəxsə *(çara, şaha, imperatora)* məxsusdur. Monarxın səlahiyyətlərini məhdudlaşdıran dövlət orqanı yoxdur. O özü qanunlar və qərarlar qəbul edir. Səudiyyə Ərəbistanı və Qətəri buna misal göstərmək olar.

---

* ***Monarxiya*** *– təkhakimiyyətlilik*

LAYİHƏ

**Məhdud** (Konstitusiyalı) **monarxiya**da monarxın hakimiyyəti konstitusiya ilə məhdudlaşdırılır. Monarxın konstitusiyanı dəyişmək hüququ yoxdur. Konstitusiyalı monarxiyanın bir növü parlamentli monarxiyadır. Bu idarəçilikdə aparıcı rol parlamentə məxsusdur. Burada monarxın rolu formaldır. Hökumət parlamentdə çoxluq qazanan partiya tərəfindən təşkil olunur və parlament qarşısında məsuliyyət daşıyır. Bu cür dövlətlərə Böyük Britaniya, Avstraliya, İspaniya, İsveç, Yaponiyanı və s. misal göstərmək olar.

***Respublikada*** hakimiyyətin bütün ali orqanları müəyyən müddət üçün seçilir. Respublikaların, əsasən, iki forması vardır: **parlamentli** və **prezidentli**.

| | |
|---|---|
| *Parlamentli respublika* | *Dövlət başçısı prezidentdir. Lakin ölkənin idarə edilməsində əsas rol baş nazir və parlamentə məxsusdur. Parlamenti isə xalq seçir. Hökumət parlamentdə çoxluq qazanan partiya tərəfindən təşkil olunur və parlament qarşısında məsuliyyət daşıyır. Parlamentli respublikaya Almaniya, Avstriyanı misal göstərmək olar.* |
| *Prezidentli respublika* | *Prezident dövlət başçısı olub, ali vəzifəli şəxsdir. Dövlət başçısı xalq tərəfindən seçilir. Ölkəni idarə etmək üçün yaradılmış Nazirlər Kabineti prezident tərəfindən təşkil olunur. Nazirlər Kabineti prezident qarşısında məsuliyyət daşıyır və ona hesabat verir. Prezidentin parlamenti buraxmaq hüququ yoxdur. Çünki parlamenti xalq seçir. Bu cür idarəçilik Azərbaycan Respublikasında, ABŞ-da həyata keçirilir.* |




*Azərbaycan Respublikası Milli Məclisinin sessiyası*



LAYİHƏ



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimi*

Bəzi ölkələrdə qarışıq xarakter daşıyan respublika idarə forması da mövcuddur. Qarışıq respublika idarəetmə forması özündə prezidentli və parlamentli idarə formasının elementlərini birləşdirir. Bu ölkələrə Fransanı, Rusiya Federasiyasını və s. aid etmək olar.

Siz demokratiyanın nə olduğunu bilirsiniz. Demokratik dövlətdə insanların hüquqları qorunur. Bu rejimə zidd olaraq həyata keçirilən idarəçilik antidemokratikdir, belə şəraitdə insanların hüquq və azadlıqları boğulur. Bu idarəetmə formasında xalqın istəyi nəzərə alınmır.

**1.** *Müasir dövlətlərdən birinin idarəetmə forması, dövlət quruluşu haqqında təqdimat hazırlayın.*
**2.** *Respublika ilə monarxiyanı fərqləndirin.*
**3.** *Qarışıq respublika idarəetmə forması haqqında müzakirələr apararaq fikirlərinizi qeyd edin.*

LAYİHƏ

# 18. CƏMİYYƏTİN HƏYATI

*İnsanların bir-biri ilə sıx əlaqədə olması, onlar arasındakı bağlılıq cəmiyyətin həyatında əsas amillərdəndir. Siz artıq cəmiyyət və onun formalaşması haqqında bir sıra biliklərə maliksiniz. Zaman keçdikcə cəmiyyətdəki dəyişikliklər həm ictimai-siyasi, həm də mədəni-iqtisadi həyata böyük təsir göstərir. Bildiyiniz kimi, cəmiyyətin idarə olunmasında əsas rolu dövlət oynayır. Dövlət qanunvericilik aktları qəbul etməklə cəmiyyətin həyatını tənzimləyir.*



***Bəs vətəndaşların cəmiyyətdə rolu nədən ibarətdir? Onlar cəmiyyətin idarə olunmasına necə təsir edir?***

*"Cəmiyyət" anlayışını yoldaşlarınızla müzakirə edin.*

Televizorda, internetdə, məktəbdə, jurnal və qəzetlərdə bizim cəmiyyətin istəkləri, problemləri, vətəndaşların tələbləri və s. ifadələr tez-tez işlədilir.

Hər bir vətəndaş cəmiyyətin üzvüdür. Vətəndaş ölkənin həyatında mühüm rol oynayan şəxsdir. Onun cəmiyyətin problemlərinin həllində iştirak etmək və qərarlar qəbul edilməsinə təsir göstərmək hüququ vardır. **Vətəndaş cəmiyyəti** – cəmiyyətin inkişafının müəyyən pilləsində formalaşan insanların birliyidir. O özündə bu cəmiyyətin siyasi, sosial, iqtisadi, mədəni sferalarında könüllü yaranan qeyri-dövlət strukturlarını birləşdirir. Azərbaycan Respublikasında cəmiyyətin həyatında aşağıdakı strukturlar da rol oynayır:

LAYİHƏ

*siyasi partiyalar* | *peşə ittifaqları* | *yaradıcılıq birlikləri*

*dini birliklər* | *təhsil mərkəzləri və s.*

Cəmiyyətin həyatını bir neçə sahəyə bölmək olar:

*İqtisadi həyat* | *Sosial həyat* | *Siyasi həyat* | *Mənəvi həyat*

Cəmiyyətin həyatında iqtisadiyyat əsas yer tutur. Hər hansı bir məhsulun hazırlanması, istehsalı, alışı, satışı və s. buna nümunədir.



Cəmiyyətin sosial həyatına insanların sosial münasibətləri daxildir. İnsanların həyat tərzindəki oxşarlıqlar onları sosial qruplarda birləşdirir.

Cəmiyyətin siyasi həyatı isə siyasi proseslərlə bağlıdır. Siyasət dövlətin və xalqın mənafeyinə uyğun addımlar atmaq üçün bir vasitədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqın mənafeyinə xidmət edərək ölkəmizin beynəlxalq aləmdə mövqeyini gücləndirir.

1994-cü ildə bağlanmış "Əsrin müqaviləsi"ni neft strategiyasının başlanğıcı hesab edən Prezident İlham Əliyev bu sahədə daha geniş addımlar atdı. 2004-cü ildən başlayaraq o, ölkədə "Azərbaycan Respublikası regionlarının sosial iqtisadi inkişafı" dövlət proqramları çərçivəsində böyük layihələrin reallaşmasına şərait yaratdı. 2014-cü ildə təməli qoyulan "Cənub Qaz Dəhlizi" ölkəmizin iqtisadi inkişafında böyük rol oynayır.

2007-ci il 7 fevral tarixində Azərbaycanla Türkiyəni birləşdirəcək Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin tikintisinə başlanıldı. 2017-ci il oktyabrın 30-da istifadəyə verilmiş bu yol Qədim İpək Yolunun bir hissəsinin bərpasıdır.

*Siz cəmiyyətin siyasi həyatına aid hansı nümunəni göstərə bilərsiniz?*



LAYİHƏ

Cəmiyyətin mənəvi həyatına mədəniyyət, dünyagörüşü, adət-ənənələr, təhsil, peşə fəaliyyəti və başqaları aiddir. Hər bir insanın davranışı, hissləri, qabiliyyəti, arzusu və s. cəmiyyətin mənəvi həyatına daxildir. Hər birimiz ətrafımızda gözəllik, düzgünlük, paklıq axtarırıq. Yaşadığımız ərazinin təmiz saxlanılması, insanların mədəni davranış qaydalarına riayət etməsi, bir-birinə hörmətlə yanaşması və bu kimi başqa nümunələr mənəvi həyatımızın bir hissəsidir. Bütün bunlarla yanaşı, xalqımıza məxsus olan milli-mənəvi dəyərlər də böyük ehtiramla qorunur.

*Mənəvi həyatın sosial həyata təsiri varmı? Fikirlərinizi əsaslandırın.*

Hazırda ölkəmizdə aparılan islahatlar cəmiyyət həyatının bütün sahələrini əhatə edir. Cəmiyyətin və ölkənin həyatında qadınların iştirakının bariz nümunəsi olan respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rolu danılmazdır. Uşaq və yeniyetmələrin təhsili və təlimi sahəsində nəhəng layihələrin həyata keçirilməsi, valideyn himayəsindən məhrum olan, sağlamlıq imkanları məhdud uşaqlara göstərilən hərtərəfli qayğı məhz onun səyi nəticəsində öz bəhrəsinin verir.

**1.** *Cəmiyyət həyatının sahələri haqqında məlumat verin.*
**2.** *Cəmiyyətin iqtisadi həyatı dedikdə nə başa düşürsünüz? Fikirlərinizi dəftərinizə yazın.*
**3.** *Cəmiyyətin sosial həyatına dair nümunələr göstərin.*
**4.** *Cəmiyyətin mənəvi həyatı barədə fikirlərinizi söyləyin. Sinif yoldaşlarınızla birgə mənəvi tələbatlarınızın siyahısını tərtib edin.*

## 19. CƏMİYYƏT VƏ TƏŞKİLATLAR

*Cəmilin atası işlədiyi müəssisədə həmkarlar ittifaqının sədridir. O həm də Yeni Azərbaycan Partiyasının üzvüdür. Anası isə qeyri-hökumət təşkilatında çalışır. Onların hər ikisi çalışdıqları yerdə dövlətimizin mənafeyinə, cəmiyyətin xeyrinə xidmət edirlər.*

***Cəmiyyətin idarə olunması qədimdən bu günədək davam etməkdədir. Bu idarəçiliyi ayrı-ayrı dövlət strukturları həyata keçirir. Bəs, görəsən, digər amillər cəmiyyətin idarə olunmasına təsir edirmi? Tez-tez adını eşitdiyimiz təşkilatlar, qurumlar cəmiyyət həyatında necə rol oynayır?***



LAYİHƏ

Cəmiyyət təkcə dövlət strukturları tərəfindən idarə edilmir. Cəmiyyətin həyatında mövcud olan təşkilatlar, partiyalar, qurumlar və s. onun həyatında mühüm rol oynayır. ***Partiyaların****** yaranması cəmiyyətin siyasi həyatı ilə bağlıdır. İnsanlar siyasi məqsədlərini ***siyasi partiyaların****** köməyi ilə həyata keçirirlər.

Cəmiyyətdə çoxpartiyalılıq demokratik idarəetmə formasının əlamətlərindən biridir. Partiyalar yaradılarkən könüllülük və üzvlərinin hüquqi bərabərliyi əsas götürülür. İlk siyasi partiyalar Hollandiya, İngiltərə, Amerika Birləşmiş Ştatları, Fransada yaranmışdır. Sonradan belə siyasi partiyalar digər ölkələrdə də yaranmağa başladı. Siyasi partiyalar Azərbaycanda XX əsrin əvvəllərində yaranıb. Belə partiyalara misal olaraq Müsavat, Difai və başqa partiyaları göstərmək olar.

Hazırda Azərbaycan Respublikasında müxtəlif partiyalar fəaliyyət göstərir. Onların arasında Yeni Azərbaycan Partiyası böyük nüfuza malikdir. Bu partiya ölkənin həyatında mühüm və aparıcı rol oynayır və xalqın mənafeyini dəstəkləyir.

Cəmiyyətin həyatını tənzimləyən qurumlardan biri də qadın hüquqlarını qoruyan təşkilatlardır.

Ölkəmizdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi fəaliyyət göstərir. İlk vaxtlar ***gender****** problemləri ilə məşğul olan bu qurum cəmiyyətin həyatında mühüm rol oynamaqda davam edir. Ailə və uşaq problemlərinin həlli də bu qurumun səlahiyyətləri daxilindədir.

Böyük nüfuza sahib olan bu komitənin əsas vəzifələri aşağıdakılardır:

*– Öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının, xüsusilə uşaq və qadın hüquqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;*

*– Müvafiq sahədə qanunvericiliklə onun səlahiyyətlərinə aid edilmiş normativ **tənzimləməni***** həyata keçirmək və s.*

---

* ***Partiya*** *– latın sözü olub "hissə", "dəstə" mənasını verir.*

** ***Siyasi partiya*** *– öz namizədlərini siyasi vəzifələrə təyin etmək yolu ilə dövlət siyasətinə təsir etməyə çalışan təşkilat*

*** ***Gender*** *– qadın və kişi bərabərliyi*

**** ***Tənzimləmə*** *– nizama salmaq, qaydaya salmaq*

LAYİHƏ

Respublikamızda uşaq və gənclərin hüquqlarını müdafiə edən, onların inkişafına imkanlar açan müəyyən təşkilatlar da mövcuddur. Gənclər təşkilatları ölkə əhalisinin əsas hissəsini təşkil edən gənclərin birliyidir. Bu təşkilatlar gənclərə xüsusi diqqət və qayğı göstərir.

Ulu öndər Heydər Əliyev gənclərə xüsusi qayğı göstərərək gənclər təşkilatlarının yaradılmasına və inkişafına şərait yaratmışdı. Hətta bu qayğının nəticəsi olaraq 1996-cı il fevralın 2-də Azərbaycan Respublikası Gənclərinin I forumu keçirilmişdi. Ona görə də hər il 2 fevral tarixi ölkəmizdə **Gənclər Günü** kimi qeyd olunur.

Cəmiyyətin həyatında qeyri-hökumət təşkilatlarının (QHT) rolu danılmazdır. Bu təşkilatlar könüllü yaradılır. Müxtəlif məsələlərin həlli ilə məşğul olan bu təşkilatlar cəmiyyətin istəklərini hökumətə çatdırır. Konkret problemlərin həlli üçün yaradılan QHT-lər də vardır. Dövlətdən asılı olmayan bu təşkilatlar insanların həyatında önəmli rol oynayır.



Ölkə daxilində fəaliyyət göstərən təşkilatlarla yanaşı, beynəlxalq təşkilatlar da mövcuddur. Ümumi məqsədlər üçün yaradılmış bu təşkilatlar dövlətlərarası və qeyri-dövlət xarakterli beynəlxalq birliklərdir. Beynəlxalq təşkilatlardan ən nüfuzlusu Birləşmiş Millətlər Təşkilatıdır. Bu təşkilat beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılmasını təmin etməyə çalışır. Digər bir nüfuzlu təşkilat Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətləri ***Federasiyasıdır****.

Həmin federasiyanın ayrılmaz üzvü olan Azərbaycan Qızıl Aypara Cəmiyyəti respublikamızda fəaliyyət göstərən ən böyük humanitar təşkilatdır.

Bu təşkilat müharibələr və fəlakətlər zamanı insanlara qayğını könüllü şəkildə həyata keçirir. Döyüş meydanında yaralılara tibbi yardım göstərən, əsir və girovların taleyinin həllində yaxından iştirak edən bu təşkilat müharibə gedən və təbii fəlakət baş verən bölgələrdə fəaliyyət göstərir.

---

** **Federasiya** – “ittifaq, birləşmə” deməkdir. Ayrı-ayrı cəmiyyətlərin, təşkilatların birliyi*



LAYİHƏ

*Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyəti haqqında məlumat toplayın və təqdimat hazırlayın.*




Əmək müqaviləsi bağlayan hər bir şəxsi müdafiə edən təşkilat Həmkarlar İttifaqıdır. Bu ittifaq öz üzvlərinin hüquqlarının müdafiəsi və sosial problemlərinin həllində yaxından iştirak edir. Müxtəlif sahələrin həmkarlar ittifaqları birləşərək Respublikamızda Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasını yaratmışdır.

1. *İctimai həyatda partiyanın rolunu izah edin.*
2. *Beynəlxalq təşkilatların funksiyasını şərh edib təqdimat hazırlayın.*
3. *Həmkarlar ittifaqlarını QHT-dən fərqləndirərək fikirlərinizi yazın.*
4. *Qadın komitələrinin cəmiyyətin həyatına nə kimi təsiri ola bilər? Fikirlərinizi əsaslandırın.*
5. *Ölkəmizdə uşaqlara və gənclərə qayğı öz əksini necə tapır? Fikirlərinizi əsaslandırın.*

LAYİHƏ

## 20. HÜQUQ SAHƏLƏRİ

*Emilin atası torpaq sahəsi almışdı. O bu sahədə bağçılıqla məşğul olmaq istəyirdi. Bir gün Emil uşaqlarla bu ərazidə oynayanda gördü ki, başqa biri burada nə isə tikir. Cəld atasına xəbər verdi. Emilin atası məsələni aydınlaşdırmaq istədi. Lakin gördü ki, heç bir vəchlə həmin şəxsin onun torpaq sahəsində bina tikdirməsinə mane ola bilmir. Ona görə də bu işi hüquqi yolla həll etməyi qərara aldı.*

***Sizcə, Emilin atası bu işi nizama salmaq üçün hara müraciət etməli oldu? Müzakirə edin və fikirlərinizi dəftərinizə qeyd edin.***

Biz ölkəmizdə azad və müəyyən hüquqlara malik olan şəxslərik. Bəzən hüquqların pozulması haqqında məlumatlar da alırıq. Bunları nizama salmaq üçün müraciət etdiyimiz bir ünvan olmalıdır. Həyatımızı tənzimləyən müəyyən qaydalar və bu qaydaları nizama salan sənədlər də mövcuddur. Bu sənədlərin icrası necə yerinə yetirilir? Bu zaman bizə nə kömək edir?

Cəmiyyətin həyatını tənzimləmək üçün hüququn müxtəlif sahələri fəaliyyət göstərir. **Hüquq** ictimai münasibətləri tənzimləyən və dövlətin müəyyənləşdirdiyi davranış qaydalarıdır. Qüvvədə olan qanunlar hər kəsin hüququnu müdafiə edir və hamı onların qarşısında bərabərdir. İnsan hüquqlarının qorunmasını və qanunun aliliyini hər şeydən üstün tutan dövlətimiz demokratik quruluş və hüquq sistemi yaratmışdır.

Hüquq sistemi özündə üç əsas elementi birləşdirir:

**hüquq sahəsi** | **hüquq institutu** | **hüquq norması**

**Hüquq sahəsi** konkret sahə üzrə ictimai münasibətləri tənzimləyən hüquq normalarını özündə cəmləşdirir. Hüququn sahələri aşağıdakılardır:

- **Konstitusiya hüququ;**
- **Mülki hüquq;**
- **Əmək hüququ;**
- **Ailə hüququ;**
- **Vergi hüququ** və s.




LAYİHƏ

| | |
|---|---|
| *Konstitusiya hüququ* | *Azərbaycan Respublikasının Konstitusiyasına əsaslanır. Konstitusiyamızın birinci fəslinin birinci maddəsində qeyd edilir ki, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır.* |

| | |
|---|---|
| *Mülki hüquq* | *Fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini, onların əmlak və qeyri-əmlak hüquqlarının həyata keçirilməsi qaydasını müəyyənləşdirən və tənzimləyən hüquq sahəsidir.* |

| | |
|---|---|
| *Əmək hüququ* | *İşçi ilə işəgötürən arasındakı əmək münasibətlərinin nizama salınmasında mühüm rol oynayır. Əmək məcəlləsinə görə on beş yaşına çatmış hər bir şəxs valideynlərindən birinin yazılı icazəsi ilə işçi kimi əmək müqaviləsi bağlaya bilər.* |

| | |
|---|---|
| *Ailə hüququ* | *Ailə münasibətlərini, yəni nikah aktından meydana gələn və ailəyə mənsub olan münasibətləri tənzimləyir.* |

| | |
|---|---|
| *Vergi hüququ* | *Vergi verənlərin hüquqlarını və vəzifələrini müəyyən edir. Dövlətin əsas gəlir mənbəyi olan vergini nizama salmaq məqsədi daşıyır.* |

Bütün sahələri nizama salan normativ hüquqi sənədlər vardır ki, bunlara Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları, digər qərar və qanunlar aiddir. Hüquq sisteminin digər bir elementi olan **hüquq institutu** eyni növ münasibətləri tənzimləyən hüquq normalarını özündə birləşdirir. Hüquq institutu hüquq sahəsinin bir hissəsidir. Hər bir hüquq sahəsi özündə bir neçə hüquq institutunu birləşdirir.

**Hüquq norması** dövlət tərəfindən tanınan, icrası məcburi olan hüquq və vəzifələri müəyyən edən qaydalardır.

LAYİHƏ

Cəmiyyətdə hər kəs öz hüquqlarından istifadə etmək üçün müəyyən normaları, qaydaları bilməlidir. Onların həyata keçirilməsində, nizamlanmasında isə hüquq sahələri və hüquq institutları mühüm rol oynayır.



*Ali Məhkəmənin binası*

1. *Konstitusiya hüququnu digər hüquq sahələrindən nə fərqləndirir? Fikrinizi əsaslandırın.*
2. *Vergilər haqqında kiçik təqdimat hazırlayın.*
3. *Hüquq sisteminin elementlərini hüququn sahələrindən fərqləndirin.*
4. *Vergilər sistemi haqqında esse yazın.*
5. *Müxtəlif normativ sənədlər haqqında məlumat toplayıb təqdim edin.*
6. *Normativ-hüquqi sənədlərin əhəmiyyətini şərh edin.*



LAYİHƏ

# 21. NORMATİV-HÜQUQİ SƏNƏDLƏR

*Fərid hər gün səhər məktəbə gedərkən yolun piyadalar üçün ayrılmış hissəsindən keçməli olur. Bir gün o, işıqforun qırmızı işığı yanan zaman piyada keçidindən keçmək istəyərkən bir maşının sürətlə onun üzərinə gəldiyini gördü. Yaxşı ki, o, cəld geri atıla bildi. Sürətlə gələn maşın digər maşına dəyib qəza törətdi. Dərhal təcili yardımla yanaşı, polis də hadisə yerinə gəldi. Qəza itkisiz keçdi. Hadisənin hüquqi yolla tənzimlənməsi üçün polis protokol yazdı.*

***Yəqin, siz də belə hadisələrlə rastlaşmısınız. İnsanların hüquqlarını, eləcə də sabitliyi qoruyan, qanun keşiyində duran qurumların bu işə müdaxiləsini görmüsünüz. Bildiyiniz bu cür hər hansı bir hadisəni dəftərinizdə qeyd edin.***



Yunan mifologiyasında qanun və ədalət allahı Femida

Hər birimiz cəmiyyətin bir parçasıyıq. Cəmiyyətdə formalaşdığı dövrdən müəyyən qayda və qanunlar mövcud olmuşdur. Hələ ibtidai icma quruluşu dövründə insanları idarə etmək üçün qəbilə və tayfa başçıları seçilir, ağsaqqallar şurası yaradılırdı. Zaman keçdikcə dövlətlər yarandı. Dövlətlərin yaranması ilə müəyyən qayda və qanunlar qüvvəyə minməyə başladı.

Hazırda ölkəmizdə və dünya dövlətlərində cəmiyyətin həyatını qorumaq üçün müəyyən hüquqi sənədlər tərtib olunub. Hətta dünya ölkələrinin bir araya gələrək beynəlxalq aləmdə qayda-qanunları nizama salmaq üçün tərtib etdikləri hüquqi sənədlər də vardır.

LAYİHƏ

*Xatırlayın: İlk yazılı qanunları tərtib edən hökmdar kim olmuşdur?*

Qanun cəmiyyətin həyatını hüquqi cəhətdən nizamlayır. Qeyd edək ki, ölkə Konstitusiyasının II fəsil 7-ci maddəsində bu öz hüquqi təsdiqini tapır:

**I.** *Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır.*

**II.** *Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır.*

**III.** *Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir.*

- *qanunverici hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;*
- *İcra Hakimiyyəti Azərbaycan Respublikasının prezidentinə mənsubdur.*
- *Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.*

**IV.** *Bu Konstitusiyanın müddəalarına əsasən qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.*

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 1998-ci il 22 fevral tarixində imzaladığı “İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi haqqında” fərmanı cəmiyyət həyatının bir daha hüquqi qaydada qorunmasının təminatıdır.

Cəmiyyətin həyatını tənzimləyən hüquqi sənədlər aşağıdakılardır:

- **Azərbaycan Respublikasının Vergi Məcəlləsi;**
- **Azərbaycan Respublikasının Mülki Məcəlləsi;**
- **Azərbaycan Respublikasının Əmək Məcəlləsi;**
- **“Sosial xidmət haqqında” Azərbaycan Respublikasının Qanunu;**
- **“Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında” Azərbaycan Respublikasının Qanunu və başqaları.**




LAYİHƏ

Ölkəmizdə bir çox qanunlar qüvvəyə minmişdir ki, bunlara 1998-ci ildə imzalanmış "Uşaq hüquqları haqqında", 2001-ci ildə "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", 2009-cu ildə qəbul edilmiş "Təhsil haqqında" Azərbaycan Respublikasının qanununu və başqa qanunları misal göstərmək olar.

Hər bir prosesi tənzimləmək üçün hüquqi-normativ sənədlərə istinad edilir. Bir çox sahələrin idarə olunmasında normativ hüquqi sənədlər qüvvəyə minmişdir ki, onlardan bəziləri də təhsilin idarə olunması ilə bağlıdır.

Təhsilin idarə olunması ilə bağlı sənədlər:

Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasında "Bilik günü"nün təsis edilməsi və təhsil müəssisələrində iş rejiminin tənzimlənməsi haqqında fərmanı (21 avqust 2004-cü il).

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Evdə təhsil almaq hüququ verən xəstəliklərin siyahısının və evdə təhsilin təşkili qaydalarının təsdiq edilməsi barədə qərarı (10 may 2002-ci il).

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sağlamlıq imkanları məhdud şəxslərin pulsuz xüsusi təhsil almaq qaydasının təsdiq edilməsi barədə qərarı (29 may 2002-ci il).

"Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların qızıl və ya gümüş medalla təltifolunma qaydası"nın təsdiq edilməsi barədə Nazirlər Kabinetinin qərarı (14 yanvar 2010-cu il).

Bütün bunlarla yanaşı, Təhsil naziri tərəfindən "Məktəblərin fənn olimpiadaları haqqında qaydalar"ın təsdiq edilməsi barədə əmr imzalanmışdır.

Şagirdlərin cəmiyyətdə şəxsiyyət kimi formalaşmasına xidmət edən addımlardan biri də "Kiçik Akademiya"ların yaradılmasıdır.

*Verilmiş normativ-hüquqi sənədlərin təhsilimizin inkişafına göstərdiyi təsiri şərh edin.*

Dünyada sabitlik yaratmaq üçün beynəlxalq təşkilatlar bəyannamələr və konvensiyalar qəbul edir. Cəmiyyətin hüquqi təminatı üçün bu da mühüm addımlardan biridir. BMT-nin qəbul etdiyi "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi" sənədi də bunun təsdiqidir. Sənəddə göstərilir:

LAYİHƏ

- **fikir azadlığı və onları ifadə etmək, düşünmək, din və vicdan azadlığı;**
- **ümumi və bərabər səsvermə hüququ;**
- **siyasi həyatda iştirak etmək;**
- **vətəndaşların haqları, maraqları və şəxsi təhlükəsizliyinin hüquqi təminatını əksetdirən qanunun aliliyi və s.**



*Ümummilli lider Heydər Əliyevin BMT Baş Məclisinin 49-cu sessiyasında çıxışı. Nyu-York, 29 sentyabr 1994-cü il*

Gördüyünüz kimi, cəmiyyətin həyatı normativ hüquqi sənədlərlə tənzimlənir. Ancaq cəmiyyətdə insanlar öz hüquqlarından istifadə edərkən başqalarının hüquqlarını pozmamalıdırlar.

?

1. *Hüquqi dövlətin əsas əlamətlərini müəyyənləşdirin. Azərbaycan Respublikasının hüquqi dövlət olmasına dair faktları qeyd edin.*
2. *Cəmiyyətin həyatının qorunması üçün hüquqi sənədlərə ehtiyac varmı? Fikirlərinizi əsaslandırın.*
3. *BMT-nin qəbul etdiyi "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi" sənədini şərh edin.*

LAYİHƏ

# 22. KONSTİTUSİYADA TƏHSİL HÜQUQU

*Nihad ingilis dilini çox yaxşı bilir. Onun arzusu təhsilini Amerika Birləşmiş Ştatlarında davam etdirməkdir.*

*Hər bir Azərbaycan vətəndaşının xaricdə təhsil almaq hüququ vardır. Ona görə də Nihad bu arzusuna çatmaq üçün böyük səylə çalışır və dərslərini əla oxuyur.*

***Hər kəsin doğulduğu andan etibarən pozulmaz hüquqları vardır. Siz bu hüquqlarınızdan hansını bilirsiniz? Məktəbli kimi sizin hansı hüquqlarınız var? Dövlətimiz sizin üçün hansı imkanları yaradıb? Gəlin təhsil almaq hüququnuzun necə olduğunu müəyyən edək.***



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məktəblilərlə görüşdə*

Azərbaycan Respublikasının Konstitusiyasının 42-ci maddəsində göstərilir:

**I.** *Hər bir vətəndaşın təhsil almaq hüququ vardır.*
**II.** *Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir.*
**III.** *Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir.*

LAYİHƏ

Ölkəmizdə hər kəsin təhsil almaq hüququ vardır. Təhsil cəmiyyətin və dövlətin inkişafında mühüm rol oynayan əsas sahələrdən biridir. Təhsil insanların yüksək mədəni səviyyəyə yiyələnməsi və şəxsiyyət kimi formalaşmasında mühüm amildir. Təhsilin məqsədi yalnız müəyyən biliklərə yiyələnən insanların hazırlanması deyil, layiqli vətəndaş, vətənpərvər insan formalaşdırmaqdır. Təhsil vasitəsilə insan həyata hazırlaşır və aldığı təhsil onun sonrakı həyatına təsir edir.

Ümumi orta təhsil pulsuzdur, milli və dini mənsubiyyətindən, dilindən, cinsindən, səhhətindən, siyasi əqidəsindən asılı olmayaraq hər bir vətəndaş bu hüquqa malikdir. Ümumi təhsil pilləsi özü də ibtidai, ümumi orta və tam orta təhsil səviyyələrinə bölünür.

İbtidai təhsilin əsas məqsədi uşaqları oxumaq, yazmaq və hesablama bacarıqlarına yiyələndirməkdir. Bununla yanaşı, şagirdlərdə insan, cəmiyyət və təbiət haqqında ilkin həyati biliklər, məntiqi təfəkkür elementləri, bədii zövq və s. bu mərhələdə formalaşdırılmalıdır.

*Siz ibtidai təhsil səviyyəsini bitirdikdə hansı bilik və bacarıqlara yiyələndiniz?*

*Cədvəl tərtib edib doldurun.*

*Azərbaycan Respublikası Konstitusiyasının 42-ci maddəsinə əsasən, hər bir vətəndaşın təhsil almaq hüququ vardır. "Ümumdünya insan hüquqlarının bəyannaməsi"nin 26-cı maddəsində də hər bir insanın təhsil hüququ olması qeyd edilir. Eyni zamanda "Uşaq hüquqları haqqında" Qanunun 22-ci maddəsində hər bir uşağın təhsil almaq hüququ öz əksini tapmışdır. Uşaqların icbari ümumi orta təhsildən yayındırılması qadağandır.*

*Maddə 22. Uşağın təhsil almaq hüququ*

*Hər bir uşağın Azərbaycan Respublikasının təhsil qanunvericiliyinə uyğun olaraq təhsil almaq hüququ vardır. Dövlət təhsil sistemi uşağın şəxsiyyətinin inkişafına, zəruri bilik və bacarıqları tam həcmdə əldə etməsinə şərait yaratmalıdır. Uşaqların icbari ümumi orta təhsildən yayındırılması qadağandır.*

*"Uşaq hüquqları haqqında" Qanunun 22-ci maddəsini oxuyub münasibət bildirin.*



LAYİHƏ



*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva məktəblilərlə görüşdə*

Ümumi orta təhsilin məqsədi şagirdlərdə ünsiyyət bacarığını, idrakı fəallığı və məntiqi təfəkkürü formalaşdırmaqdır. Bununla yanaşı, şagirdlərin öz gələcək fəaliyyət istiqamətini müəyyənləşdirmək bacarığını təmin etməkdir.

Tam orta təhsil səviyyəsində məqsəd şagirdlərdə istedad və qabiliyyəti üzə çıxarmaq, onları müstəqil həyata hazırlamaqdır. Bunun sayəsində də şagirdlərdə milli və ümumbəşəri dəyərlərə, insan hüquq və azadlıqlarına hörmətlə yanaşma hissi təmin olunur.

Təhsilin ali məqsədlərindən biri də uşaqların təlim-tərbiyəsinin düzgün təşkili, fiziki, əqli və intellektual-mənəvi inkişafı, həmçinin onların öz istedadlarını nümayiş etdirmələri üçün lazımi şəraitin yaradılması, ölkəyə layiqli və vətənpərvər vətəndaşların yetişdirilməsidir.

2009-cu ildə "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Qanunda sağlamlıq imkanları məhdud olan, uzun müddət müalicəyə ehtiyacı olan təhsilalanların təhsilini, müalicəsini, ictimai həyata inteqrasiyasını nəzərdə tutan xüsusi ümumtəhsil proqramlarının həyata keçirilməsi planlaşdırılmışdır.

Bu istiqamətdə Azərbaycan Respublikasında müəyyən işlər görülür. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sağlamlıq imkanları mədud olan uşaqların təhsilinə xüsusi diqqət göstərir. O uşaqların təhsili ilə yanaşı, onların yaradıcılıq işlərinə maraq göstərmələrini dəstəkləyir.

LAYİHƏ



*Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın xüsusi qayğıya ehtiyacı olan uşaqlarla görüşü*

?

**1.** *Hər bir şəxsin təhsilalma hüququ var. Təhsilalma hüququnuzun olmasını əsaslandırın.*

**2.** *Azərbaycan Respublikasının Konstitusiyasında təhsil hüququ necə əks olunub? Müzakirə apararaq fikirlərinizi bildirin.*

**3.** *Təhsil hüquqlarınızı təsdiq edən sənədlər barədə məlumatı oxuyub müzakirə edin.*

**4.** *Mövzu ilə bağlı esse yazın.*



LAYİHƏ

## 23. ƏMƏK VƏ ONUN NÖVLƏRİ

*Humayın arzusu həkim olmaqdır. O, dərslərini yaxşı oxuyur, arzusuna çatmaq üçün hər gün əmək sərf edir. Onun atası tikintidə çalışır. Anası isə müəllimdir. Babası avtobus sürücüsüdür. Nənəsi Humaya tez-tez müxtəlif hədiyyələr alır və geyimlər tikir. Axı onun nənəsi dərzidir.*




***Görürsünüzmü, Humayın ailəsində müxtəlif sahədə çalışan insanlar var. Sizin ailə üzvlərinizin çalışdığı sahələr əməyin hansı növlərinə aid edilə bilər?***

İnsan daim inkişafa can atmışdır. Müxtəlif inkişaf mərhələlərini keçən insan buna nail oldu. Sadə əmək alətlərinin yerini mürəkkəb qurğulu mexaniki əmək alətləri tutdu.

Əmək cəmiyyətin inkişafında əsas şərtdir. İnsanlar lap qədimdən öz tələbatlarını ödəmək üçün müxtəlif əmək növləri ilə məşğul olmuşlar. Onlar qida əldə edərkən, ev tikərkən, əkin-biçin işləri ilə məşğul olarkən müxtəlif üsul və vasitələrə əl atmış, müxtəlif əmək alətlərindən məqsədəuyğun şəkildə istifadə etmişlər.

Cəmiyyətdə münasibətlərin əsasını əmək münasibətləri təşkil edir. Əmək bölgüsü və onun müxtəlif formaları inkişaf etdikcə insanlar arasında iqtisadi əlaqələr genişlənir, yeni-yeni əmək növləri (fiziki, zehni, sadə, mürəkkəb və s.) formalaşırdı.

LAYİHƏ

Əmək və onun növlərinə aşağıdakılar da daxil edilir:
- ► sənaye əməyi
- ► istehsal əməyi
- ► fərdi və kollektiv əmək
- ► əl əməyi
- ► elmi əmək
- ► kənd təsərrüfatı əməyi və başqaları

*Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsində qeyd edilir ki, əmək fərdi və ictimai rifahın əsasıdır. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır.*

Məlumdur ki, insan həm fiziki, həm də zehni işlə məşğul olur. Bu növlərin hər ikisində işçinin həm əli, həm də beyni fəaliyyət göstərir. Fiziki işə bənnanın ev tikməsini, dülgərin taxta yonmasını misal gətirmək olar. Zehni əməyə isə alimin araşdırması, mühasibin hesablama əməliyyatı aparması və başqaları daxildir.



Məsələn, siz dərslərinizi hazırlayarkən daha çox zehni əməklə məşğul olursunuz. Bu zaman nə isə yaza və çəkə bilərsiniz. Yəni cüzi də olsa, fiziki fəaliyyət bu prosesdə yer tutur. Ev işlərinə kömək edərkən, məktəbdə sinif otağının təmiz saxlanması və məktəbyanı sahənin təmizlənməsində iştirak edərkən fiziki əməklə məşğul olursunuz, hətta bu zaman da beyində ən sadə işlərin planını, həyata keçirmə yolunu fikirləşirsiniz. Zaman keçdikcə tələbatlarınız dəyişəcək, özünüzə peşələr seçəcəksiniz. Bəziləriniz fiziki, digərləriniz isə zehni işə maraq göstərməklə həyatınızı quracaqsınız.

Əməyin müxtəlif növləri üzrə çalışan mütəxəssislərin peşəkarlığı iqtisadi proseslərin tənzimlənməsində böyük rol oynayır. Mütəxəssislərin təhsilli, səriştəli olması vacibdir. Bu ehtiyac hər bir ölkənin iqtisadi və sosial inkişafının əsas mənbəyidir.

Əziz dostlar, əməyin hansı forması ilə məşğul olmanıza baxmayaraq, cəmiyyətə faydalı olmağa çalışın. Sizin xoşbəxtliyiniz öz əlinizdədir!

LAYİHƏ

1. *Gündəlik həyatınızda gördüyünüz işlərin siyahısını tərtib edin və onların hansı əmək növünə aid olduğunu qeyd edin.*
2. *Gələcəkdə hansı peşəyə sahib olacağınız haqqında esse yazın.*
3. *Əmək və onun növlərinin iqtisadi prosesdəki rolu nədən ibarətdir?*
4. *İqtisadi proseslərdə əməyin növlərinin rolunu şərh edin.*

## 24. İQTİSADİ PROSESLƏRDƏ ƏMƏYİN ROLU

*Məktəbdə şagirdlər şənliyə hazırlaşırlar. Ləmanın bu şənliyə geyinmək üçün paltarı yox idi. O, anasından xahiş edir ki, ona yeni geyim alsın. Çiçək isə atasından ona ayaqqabı almağı xahiş edir. İbrahim şənlikdə dənizçi rolunda çıxış edəcəyi üçün ona da dənizçi geyimi tikdirmək gərəkdir.*



***Bildiyimiz kimi, həyatda yaşamaq üçün qida ilə yanaşı, paltar, ayaqqabı, mənzil və s. kimi başqa ehtiyaclarımız da vardır. Bütün bunlar bizim tələbatımızı ödəyir.***
***Nə üçün bu sadalananlar cəmiyyətin həyatında mühüm yer tutur?***

İnsanlar həmişə təbiətin sirlərini öyrənməyə çalışmışlar. Əvvəllər məhsulu təbiətdən hazır şəkildə əldə edən insan sonralar onun müxtəlif yollarla artırılmasını düşünməyə başlayır. Təbii ki, nemətlərin hamısı insanlara hazır şəkildə verilmir. Ona görə də müxtəlif nemətləri əldə etmək üçün insanlar zaman keçdikcə onların istehsalını daha da təkmilləşdirdilər. Əl əməyi maşın əmə-

LAYİHƏ

yi ilə əvəz olunaraq istehsalın sürətlənməsinə yol açdı. Fabrik və zavodların yaradılması qısa müddətdə keyfiyyətli məhsulların ortaya çıxmasına şərait yaratdı.

Cəmiyyətin tələbatı sonsuzdur. Bu tələbatların ödənilməsinin əsasını isə iqtisadiyyat təşkil edir. Əgər müşahidə aparsanız, müəyyən edərsiniz ki, cəmiyyətdə ən mühüm yeri iqtisadi münasibətlər tutur.





*Cəmiyyətin həyatında iqtisadiyyatın rolu nə dərəcədə əhəmiyyətlidir? Fikirlərinizi əsaslandırmağa çalışın.*

İqtisadiyyat istehsal *(sənaye, kənd təsərrüfatı, tikinti, yük nəqliyyatı və s.)* və qeyri-istehsal *(təhsil, səhiyyə, mənzil-kommunal xidmətləri və s.)* sahələrini əhatə edir.

*Ölkəmizdə mövcud olan istehsal sahələri haqqında fikir mübadiləsi aparın və gəldiyiniz nəticələri dəftərinizə qeyd edin.*

**İstehsal** maddi nemətlər yaratmağa yönəldilmiş fəaliyyət prosesi olub, firma, müəssisə, birliklər və s. tərəfindən həyata keçirilir. Bütün bunlarla yanaşı, ev təsərrüfatının iqtisadiyyatı da mövcuddur.



LAYİHƏ

*Məşhur Amerika iqtisadçısı, Nobel mükafatı laureatı Paul Samuelson iqtisadi nəzəriyyə ilə bağlı belə bir fikir söyləmişdi: "İqtisadi nəzəriyyə müxtəlif* ***əmtəələrin**** *istehsalı, indi və gələcəkdə istehsal etmək məqsədilə müxtəlif adamlar və qruplar arasında bölüşdürülməsi, insanlar və cəmiyyət tərəfindən pulun köməyi ilə və ya onun iştirakı olmadan nadir ehtiyatlardan məhsuldar istifadə olunması haqqında elmdir".*

*Bu fikri müzakirə edin.*

Cəmiyyəti iqtisadiyyatsız təsəvvür etmək olmaz. Cəmiyyət həyatının mövcudluğundan bu günədək baş verən proseslər iqtisadiyyatla bağlıdır. İnsan yaşamaq üçün mübarizə aparmış, onun fəaliyyətinin inkişafı tələbatlarının çoxalmasına gətirib çıxarmışdır.

***Ulu öndər Heydər Əliyev demişdir:***
***"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir".***

Respublikamızda da iqtisadiyyat inkişaf edir. Aparılan islahatlar nəticəsində ölkəmizdə iqtisadi sahədə bir çox uğurlar əldə edilmişdir. İqtisadiyyatın inkişafı xalqın rifahından xəbər verir.

**1.** *Gündəlik tələbatlarınızın siyahısını hazırlayın.*
**2.** *Ulu öndər Heydər Əliyevin iqtisadiyyatla bağlı söylədiyi fikri başlıq seçərək esse yazın.*
**3.** *İqtisadiyyatın cəmiyyətin həyatındakı rolunu necə başa düşürsünüz? Fikirlərinizi nümunələrlə dəftərinizə yazın.*
**4.** *Cəmiyyətin idarə olunmasında iqtisadiyyatın rolu barədə nümunə göstərin.*
**5.** *Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra iqtisadi sahədə hansı uğurlara nail olmuşdur?*

* ***Əmtəə*** *– satış üçün nəzərdə tutulan məhsul*

LAYİHƏ

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2003
2. Ç.İsmayılov. “Xəzər dənizinin və sahilyanı ərazilərin ekologiyası”. Bakı, “Ayna Mətbuat evi”, 2005
3. E.Kərimov, B.Osmanov. İqtisadi nəzəriyyə. Bakı, 2004
4. Ekoloji siyasət. Bakı, 2008
5. Fövqəladə hadisələrin təsnifatı (məlumat kitabı). Bakı, 2001
6. F.Əkbərov. Ən böyük əxlaq. Bakı, 2004
7. Qurani-Kərim (Tərcüməçilər: akad. Z.Bünyadov və prof. V.Məmmədəliyev)
8. Qida və sizin sağlamlığınız. Məktəblilər üçün tədris proqramı. Açıq Cəmiyyət İnstitutu Bakı, 1999
9. M.Qasımov. “Sağlam həyat tərzi uğrunda”. Bakı, 2005
10. M.Əmirov. “İnsan və Cəmiyyət”. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, 2010
11. N.Əkbərov. Ailə və cəmiyyətdə əxlaq və davranış qaydaları. “Bərəkət” nəşriyyatı, 2010
12. N.Əkbərov. Ailədə və cəmiyyətdə əxlaq və davranış qaydaları. (Ümumtəhsil məktəbləri şagird və müəllimləri üçün vəsait). Bakı, “Bərəkət” nəşriyyatı, 2009
13. “Özünə və başqalarına kömək etməyi bacar” (Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi). Bakı, 2004
14. R.Əliyev. İqtisadi təhlilin nəzəriyyəsi. Bakı, 2002
15. R.Əliyeva, Q.Mustafayev, S.Hacıyeva. “Ümumi ekologiya”. Bakı, 2004
16. S.Əliyev, H.Hacıyeva, N.Mikayılzadə. “Tibbi biliklərin əsasları”. Bakı, 2004
17. “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunu. Bakı, 2009
18. Z.Nadirov, D.Şirinova, T.Ağayev, R.Əhmədova, M.Səfərəliyev. “Atmosferə düşən zərərli maddələrin hesablanma əsasları”. Sumqayıt, 2005
19. Z.Qaralov. Tərbiyə. III cild. Bakı, 2003




LAYİHƏ

# Buraxılış məlumatı


**HƏYAT BİLGİSİ 7**

*Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün*
*Həyat bilgisi fənni üzrə*

**DƏRSLİK**

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər: | **Məmmədova Nüşabə Əsəd qızı**<br>**Mahmudova Könül Faiq qızı**<br>**Bəhrəmova Sevil Şivəxan qızı** |
| Buraxılışa məsul | **Rafiq Kazımov** |
| Baş redaktor | **Ülkər Məmmədova** |
| Üz qabığının dizaynı | **Elşən Qurbanov** |
| Səhifələyici-dizayner | **Aytən Alışova** |
| Redaktor | **Tamilla Rüstəmova** |
| Korrektor | **Nübar Qarayeva** |
| Texniki redaktor | **Fəridə Səmədova** |
| Texniki direktor | **Xəqani Fərzalıyev** |
| Nəşriyyat direktoru | **Sevil İsmayılova** |

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi:*

*2018-105*



**© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2019**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



Hesab-nəşriyyat həcmi. Fiziki çap vərəqi 5. Formatı 70x100 $^{1}/_{16}$.
Səhifə sayı 80. Ofset kağızı. Jurnal qarnituru. Ofset çapı.
Tiraj 19057. Pulsuz. Bakı – 2019.

**“Şərq-Qərb” ASC**
**AZ1123, Bakı, Aşıq Ələsgər küç., 17.**


LAYİHƏ

**Pulsuz**

## Əziz məktəbli!

**Bu dərslik sənə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir.**

**O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sənə etibarlı dost və yardımçı olacaq.**

**İnanırıq ki, sən də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsan ki, növbəti dərs ilində digər məktəbli yoldaşın ondan sənin kimi rahat istifadə edə bilsin.**

**Sənə təhsildə uğurlar arzulayırıq!**

LAYİHƏ